*Əbülfəz Rəcəbov:*

# *Dil, Cəmiyyət, Şüur*

*İkinci Fəsil*


- *Dil, Təfəkkür və şüur*
- *Diləqədərki Təfəkkür problemi*
- *Dil və Şüur*
- *Dil və Təfəkkür*


## *Dil Təfəkkür və Şüur*

Dil insan şüuru, insan təfəkkürü ilə sıx əlaqədardır. Lakin iş elə gətirmişdir ki, lap əvvəldən dilçilər bu məsələyə birtərəfli yanaşmış, dilin ümumiyyətlə insan şüuru ilə əlaqəsi problemini daraltmış, onu dillə təfəkkür arasındakı əlaqə probleminə çevirmişlər. İstər rus və sovet dilçiliyində, istərsə xarici dilçilikdə, adətən, dillə şüurun deyil, dillə təfəkkürün -münasibətindən bəhs edilir. Hətta sovet dilçiliyində dillə təfəkkürün əlaqəsindən danışılarkən müəlliflər öz fikirlərini sübut etmək üçün Marks və Enqelsin əsərlərinə müraciət edib göstərirlər ki, onlar da əsərlərində dillə təfəkkürün sıx əlaqədə olduğunu söyləmişlər. Məsələn, SSRİ Elmlər Akademiyasının nəşr etdiyi üç cildlik «Ümumi dilçilik» kitabının müəllifləri yazırlar: «Alman məfkurəsi» əsərində K. Marksın fikirləri məhz təfəkkürü - onunla yanaşı dili də-materialistcəsinə anlamaq üçün onu anlamanın idealist konsepsiyasına qarşı yönəldilmişdir ki, burada (sonralar) sovet dilçiliyində qəbul edilmiş dillə təfəkkürün vəhdəti haqqında tezis əsaslandırılmışdır»1. Eyni fikrə Azərbaycan dilçilərinin əsərlərində də rast gəlirik. Nümunə üçün həmin fikirlərdən birini göstərək: «Marksizm-Leninizm klassikləri dillə təfəkkürün insan cəmiyyətinin ictimai həyatında əmələ gəldiyini və inkişaf etdiyini sübut etmişlər. Onlar sübut etmişlər ki, ictimai hadisə olan dil və təfəkkür insan cəmiyyətinin əmələ gəlməsi ilə əmələ gəlmiş və onun inkişafı ilə birlikdə inkişaf etmişdir»2.

Qeyd etmək lazımdır ki. Marks və Enqels heç vaxt heç yerdə dillə təfəkkürün əlaqəsindən bəhs etməmişlər. K. Marks «Alman məfkurəsi» adlı əsərində yazır: «Dil də şüur kimi qədimdir; dil başqa insanlar üçün mövcud olan və yalnız bununla da mənim özüm üçün də mövcud olan praktik real şüurdur və şüur kimi dil də yalnız ehtiyacdan, başqa insanlarla ünsiyyət ehtiyacından doğur, harada müəyyən bir münasibət müvcuddursa, o mənim üçün mövcuddur; heyvan heç bir şeyə «münasibət» bəsləmir, ümumiyyətlə

«münasibət» bəsləmir, heyvan üçün onun başqalarına münasibəti münasibət kimi mövcud deyildir. Beləliklə, şüur lap əvvəldən ictimai məhsul olmuş və ümumiyyətlə insanlar mövcud olduqca belə də qalacaqdır»3. Göründüyü kimi, K. Marks dillə təfəkkürün deyil, dillə şüurun münasibətindən bəhs edir. F. Enqels də «Meymunun insana çevrilməsi prosesində əməyin rolu» əsərində dillə şüurun qarşılıqlı münasibəti məsələlərindən söhbət açaraq yazır «Beynin və ona tabe olan hissələrin, getdikcə daha çox aydınlaşan şüurun, abstraksiya və əqli nəticə çıxarmaq bacarığının inkişafı əməyə və dilə əks-təsir göstərərək, bunların hər ikisinə daha da inkişaf etmələri üçün getdikcə yeni-yeni təkanlar vermişdir» 4. K. Marks və F. Enqelsin əsərlərindən gətirilən nümunələrdən göründüyü kimi onlar dillə təfəkkürün deyil, dillə şüurun münasibətindən danışmışlar.

Dillə şüur, dillə təfəkkür arasındakı mürəkkəb münasibətləri nəzərdən keçirməzdən əvvəl şüurun və təfəkkürün nə olduğunu, «şüur» və «təfəkkür» terminləri ilə nə nəzərdə tutulduğunu aydınlaşdıraq. Bu terminlərin ən çox işləndiyi fəlsəfə və psikologiya elmlərində, habelə dilçilikdə (və məntiqdə) şüur və təfəkkür arasında dərin daxili asılılıq və qarşılıqlı əlaqələr olduğu göstərilir. Biz «şüur» dedikdə adətən, gerçəkliyin insan əsəb-beyin sistemində bütün inikası prosesini nəzərdə tuturuq. Psixoloqların fikrincə, «təfəkkür maddi aləmin cisim və hadisələri arasındakı əlaqə və münasibətlərin insan beynində məqsədə yönəlmiş, ümumiləşmiş və vasitəli inikasından ibarət psiki prosesdir» 5.

Filosoflar da təfəkkürə, təxminən, belə münasibət bəsləyirlər. Onlar gerçəkliyin məfhum, hökm və nəticə şəklində inikası prosesini təfəkkür adlandırırlar. Təfəkkür sırf məntiqi kateqoriyalarla təzahür edir. Şüur isə daha geniş əhatə dairəsinə malikdir. «Şüur» və «təfəkkür» terminlərinin təriflərindən aydın olur ki, təfəkkür şüura daxildir; təfəkkür şüurun fəaliyyətidir. Təfəkkürdən başqa maddi aləmin, gerçəkliyin digər inikas formaları, məsələn, gerçəkliyin emosional, estetik, iradi, hissi ifadə formaları da şüura daxildir. Belə bir həqiqət hamıya məlumdur ki, məfhum, hökm və nəticə kimi sırf fəlsəfi kateqoriyalarla maddi aləmi əks etdirən təfəkkür emosional hissləri əks etdirə bilməz. Bu tip hissi proseslər yalnız insan beyninin yüksək dərəcədə inkişaf etmiş məhsulu olan şüur vasitələri ilə qavranılır və inikas edilir. Yeri gəlmişkən bir məsələni də qeyd etmək lazımdır: şüur bəzi elmdə başqa mənada da işlənilir - bu terminlə əqidə, baxış, ideyalar sistemi və s. ifadəsi də nəzərdə tutulur. Bu halda həmin termin dar mənada işlənir və «dünyagörüşü», «ideologiya» terminlərilə yaxın məna daşıyır, həmin terminlərlə, bir növ sinonim məna kəsb edir.

Təfəkkür və şüurun nə olduğu, bunların haradan əmələ gəldiyi sual edilsə, görərik ki, bunlar insan beyninin məhsuludur, insan özü də müəyyən təbii şəraitdə və onunla birlikdə inkişaf etmiş təbiət məhsuludur. Buna görə də özlüyündə aydındır ki, nəticə etibarı ilə, yenə təbiət məhsulu olan insan beyni məhsulları təbiətin qalan rabitəsinə zidd deyil, ona uyğundur 6.

Son zamanlaradək dillə şüurun qarşılıqlı münasibətləri məsələsinə dilçilikdə laqeyd münasibət bəslənilmişdir; bu problem dillə təfəkkür arasındakı problem kimi tədqiq edilmişdir. İstər rus, istərsə sovet dilçiliyində, o cümlədən Azərbaycan dilçiliyində son illərdə ümumi dilçiliyin, milli dillərin leksika, leksikologiya və semasiologiyasına aid yazılmış əsərlərdə hətta sözün mənası problemi ümumiyyətlə bütövlükdə şüurla deyil, yalnız fikirlə, təfəkkürlə əlaqələndirilir. Halbuki dilçilərə məlumdur ki, söz təkcə məntiqi mənaya malik deyil, emosional və estetik mənalara da malikdir və bu üç məna - məntiqi (adla əşya arasındakı münasibət), emosional və estetik mənalar dilin semantikasını əmələ gətirir.

Klassik «dil də şüur kimi qədimdir» sözlərindən çıxış edib ilk növbədə «Dil və şüur» problemindən, sonra isə bu problemin tərkib hissəsi olan «dil və təfəkkür» problemindən bəhs etmək lazımdır.

## *Diləqədərki Təfəkkür Problemi*

Qeyd etdiyimiz kimi, dilçilikdə «dil və şüur», «dil və təfəkkür» problemi səthi işləndiyi üçün «dil və şüur» ümumi problemi onun tərkib hissəsi olan «dil və təfəkkür» problemi kimi tədqiq edilmişdir. Buna görə də dilçilik ədəbiyyatında diləqədərki şüur probleminin tədqiqinə təsadüf etmirik; bu problem də diləqədərki təfəkkür problemi kimi qəbul edilmiş, hətta SSRİ Elmlər Akademiyasının nəşr etdiyi «Ümumi dilçilik» kitabında ayrıca olaraq «Diləqədərki təfəkkür problemi» başlığı altında tədqiq edilmişdir 7. Bu hissənin müəllifi (B. A. Serebrennikov) təfəkkürün dildən xeyli əvvəl və ondan asılı olmayaraq müstəqil mövcud olduğunu iddia edir. Əvvəlcə təfəkkürün dildən əvvəl mövcud olub-olmaması məsələsini nəzərdən keçirək.

Alimlərin böyük əksəriyyəti bu fikirdədir ki, dil və təfəkkür eyni vaxtda yaranmışdır, nə təfəkkür dildən əvvəl, nə də dil təfəkkürdən əvvəl yarana bilər. Məsələn, K. K Koşevoy yazır ki, dil və təfəkkür qırılmaz vəhdətdədir: fikirsiz dil və əksinə, dilsiz fikir mövcud deyil. N. K. Oduyevanın fikrincə, təfəkkürün başlanğıcı hissi məlumatın söz şəklində ümumiləşdirilməsinə təsadüf edir. V. Z. Panfilov yazır: «Dialektik materializm baxımından şüurun, ruhun ikinci və materiyanın birinci olması bir də onda meydana çıxır ki, təfəkkür baş beynin maddi fizioloji prosesləri ilə qırılmaz əlaqədə mövcud olur, bununla yanaşı yalnız dil əsasında və dilin köməyilə baş verə bilər və baş verir. Bununla əlaqədar olaraq, dialektik materializm təsdiq edir ki, dildən kənarda təfəkkür mümkün deyil, dil və təfəkkür öz təşəkküllərində və mövcud olmalarında bir-birindən ayrılmazdır» 8.

A. Bınkov belə hesab edir ki, insan dili və təfəkkür əmək prosesində eyni zamanda yaranmışdır. İnsanın mücərrəd təfəkkürü dilin inkişafı ilə birlikdə formalaşmışdır. Təkcə dil deyil, təfəkkür də əmək fəaliyyəti zamanı ünsiyyət zərurəti nəticəsində yaranmışdır. V. Q. Kolşanski də eyni fikri söyləyir. Dillə təfəkkürün vəhdəti, onların eyni zamanda əmələ gəlməsi, dilsiz təfəkkürün, təfəkkürsüz dilin mövcud olmaması

haqqında böyük rus materialist fizioloqu İ. M. Seçenovun da maraqlı fikirləri vardır: «Uşaq fikirləşərkən, həmin vaxt ərzində o, mütləq danışır. Beş yaşlı uşaqlarda fikir sözlərlə və pıçıltılı danışıqla, yaxud da ən azı dilin və dodaqların hərəkəti ilə ifadə olunur. Bu, fövqəladə dərəcədə çox (ola bilsin ki, hər vaxt, lakin müxtəlif dərəcələrdə) yaşlı adamlarda da olur. Ən azı, mən özümdən bilirəm ki, mənim fikrim lap çox vaxt örtülü və hərəkətsiz ağızda lal danışıqla, yəni ağız boşluğunda dil əzələlərinin hərakətləri ilə müşayiət olunur. Bütün hallarda başqalarına hər hansı fikri çatdırmaq istəyəndə, onu əvvəlcə mütləq pıçıldayıram. Hətta mənə elə gəlir ki, mən heç vaxt bilavasitə sözlərlə fikirləşmirəm, mən həmişə fikirlərimi danışıq formasında müşayiat edən əzələ duyumları ilə düşünürəm»9.

Son zamanlar dillə təfəkkürün eyni zamanda əmələ gəlməsi fikri bəzi tədqiqatçıların etirazına səbəb olmuşdur. Onlar iddia edirlər ki, təfəkkür dildən əvvəl də mövcud olmuşdur. Onlar F. Enqelsə isnad edib göstərirlər ki, bir halda ki, əmək dildən əvvəl mövcud olmuşdur, bir halda ki, insanın özünü əmək yaratmışdır, bir halda ki, heç bir əmək təfəkkürsüz baş vermir, onda deməli, əməklə təfəkkür eyni zamanda yaranır, onda, deməli, təfəkkür dildən qədimdir, dilə qədər də təfəkkür mövcud olmuşdur. Həmin tezisin təsdiqi üçün F. Enqelsin bu sözləri sitat gətirilir: «...əməyin inkişafı cəmiyyət üzvlərinin zərurət üzündən daha sıx birləşməsinə kömək etmişdir, çünki onun sayəsində qarşılıqlı kömək, birgə fəaliyyət halları tez-tez baş verməyə başlamış və cəmiyyətin hər bir ayrıca üzvü bu birgə fəaliyyətin faydalı olduğunu daha aydın dərk etməyə başlamışdır. Qısa desək, əmələ gələn insanlar o yerə çatmışlar ki, onların bir-birinə bir şey söyləmək tələbatı meydana gəlmişdir. Tələbat özünə orqan yaratmışdır: Meymunun inkişaf etməmiş olan xirtdəyi yavaş-yavaş, lakin dönmədən, modulyasiya yolu ilə getdikcə daha artıq inkişaf edən modulyasiyaya keçmək üçün dəyişilmiş, ağız orqanları isə tədricən bir-birinin ardınca aydın səslər tələffüz etməyi öyrənmişdir». B. A. Serebrennikov, çox güman ki, qəsdən F. Enqelsin sitatındakı sonrakı cümləni götürür. Həmin cümlə belədir: «Dilin əmək prosesində və deməklə birlikdə (kursiv mənimdir - Ə. R.) meydana gəlməsi haqqında verilən bu izahın yeganə doğru izah olduğunu heyvanlarla müqayisə sübut edir». Sonra müəllif sözünə davam edərək yenə F. Enqelsdən sitat gətirir: «Əvvəlcə əmək, sonra isə onunla birlikdə aydın nitq iki ən başlıca amil olmuş və bunların təsiri altında meymun beyni tədricən insan beyninə çevrilmişdir; bu beyni, meymun beyninə çox bənzəməklə bərabər, böyüklüyü və mükəmməlliyi cəhətdən ondan olduqca üstündür». Bu sonuncu cümlədən belə nəticə çıxarılır ki, guya F. Enqels birbaşa olmasa da, dolayısı yolla təfəkkürün dildən əvvəl mövcud olması fikrini söyləmişdir (əmək, təfəkkür eyni zamanda yaranmışdır, əmək isə dildən qədimdir, əvvəldir). Lakin, gördüyümüz kimi, F. Enqels dilin əməklə birlikdə meydana gəlməsi fikrini də söyləmişdir. Bu o deməkdir ki, əməklə birlikdə yaranan təfəkkür əməklə birlikdə meydana çıxan dillə eyni zamanda əmələ gəlmişdir. Hətta bir qədər də irəli gedib Enqelsin sözlərindən belə bir nəticə çıxarmaq olar ki, əməklə yanaşı dil də meymun beyninin insan beyninə çevrilməsində mühüm rol oynamışdır. Başqa sözlə desək, təfəkkürün meymun beyninə xas xüsusiyyət olmadığını nəzərə alsaq, dil təfəkkürdən əvvəl yaranmış və təfəkkürün yaranmasında mühüm rol oynamışdır. Son zamanlar elmi ədəbiyyatda da dilin təfəkkürdən

əvvəl yaranması haqqında fikirlərə təsadüf edirik. B. F. Porşnev yazır: «... ola bilər ki, söz fikrin məhsulu deyil, əksinədir? Bizim günlərimizdə dilçi nəzəriyyəçilər, məntiqçilər və psikoloqlar aləmi bu haqda mübahisə edir. Bu gün biz bilirik ki, insan beynində fikir mərkəzi yaxud zonası yoxdur, amma nitq mərkəzləri yaxud sahələri həqiqətən vardır-sol yarım-kürədə, yuxarı və aşağı alın nahiyəsində, gicgahda, bu sonuncunun əmgək və ənsə ilə birləşdiyi yerdə»10.

İnsan beynindəki nitq mərkəzlərinin yeri Broka tərəfindən müəyyənləşdirilmiş, sonra bütün nevropsikoloqlar tərəfindən yoxlanılmış və təsdiq edilmişdir. Brokanın kəşfinə görə, insanın danışmaq qabiliyyəti mərkəzi böyük beynin sol yarımkürəsinin üçüncü alın qırışında yerləşir.

Müəllif (B. A. Serebrennikov) haqlı olaraq göstərir ki, hətta ən primitiv alət düzəltmək ümumiləşdirmə və nəticə, başqa sözlə desək, təfəkkür olmadan mümkün deyildir. Deməli, müəllif sübut etməlidir ki, alət düzəltmək dildən əvvəl mümkün olmuşdur. Bu fikri sübut etmək üçün, o, psikoloq İ. V. Kopnindən aşağıdakı sitatı gətirir: «Nəticə insanın əmək fəaliyyəti tələbindən doğur, bu fəaliyyətin spesifik xüsusiyyəti bundadır ki, insan iş görməyə başlamazdan əvvəl onun şüurunda əməyin nəticəsi qabaqcadan hazır olur. Əşyanı düzəltməzdən əvvəl, o, bütün istehsal prosesini əvvəldən axıradək müfəssəl surətdə xəyalında canlandırır. Bu proses nəticəsiz mümkün deyildir»11. Göründüyü kimi, burada söhbət təfəkkürdən deyil, şüurdan gedir.

Təbiidir ki, maddi aləmin əşya və hadisələrinin beyində inikası təkcə insana xas xüsusiyyət deyildir, o, beyni olan bütün canlılara xasdır; təkcə inkişafın aşağı pilləsində olan canlılar (məsələn, təkhüceyrəlilər) maddi aləmin əşya və hadisələrini inikas edə bilmirlər. Ümumi mənada maddi aləmin əşya və hadisələrinin beyində belə inikası şüurdur və belə şüur yalnız insanların inhisarı deyildir, heyvanlar aləmində də belə şüur mövcuddur. Buna görə də heyvanlarda, xüsusən daha yüksək inkişaf səviyyəsində olan heyvanlarda «fikirləşmə, düşünmə qabiliyyətinin» olması təbii hadisədir. Tısbağa adam görəndə başını çanağının altinda gizlədir, ilbiz bir şeyə toxunan kimi «buynuzlarını» və başını gizlədir. Bunu təfəkkür, hətta ibtidai təfəkkür adlandırmaq gülünc olardı. Bu, ətraf mühitin, sadəcə olaraq, orqanizmdə inikasıdır; bu inikas, əsasən, beyin vasitəsilə olur - bütün hiss orqanları (göz, qulaq, dad, lamisə) şərti siqnalları beynə nəql edir və həmin siqnalların obrazlı ifadələri beyində inikas edir. B, A. Serebrennikov bunu təfəkkür kimi qəbul edir və fikrini sübut etmək üçün İ. M. Seçenovdan bu sitatı gətirir: «heyvanlarda məlum hərəkətləri anadangəlmə maşın kimi icra etmək bacarığından əlavə tez-tez həmin anın vəziyyəti və ya həmin yerin şəraitindən istifadə etmək bacarığı müşahidə edilir. Bunu heyvanın fərasəti (zəkası), onun ağıllılığı və ümumiyyətlə düşunmə bacarığından başqa cür izah etmək olmaz»12. Göründüyü kimi, İ. M. Seçenov heç yerdə təfəkkürdən danışmır, onun heyvanlar üçün göstərdiyi keyfiyyətlər maddi aləmin beyində inikası və bu inikasın tələbi ilə necə hərəkət etmək zərurətini qət etməkdən başqa bir şey deyildir. Ümumiyyətlə, elm belə tezisi heç vaxt rədd etməmişdir ki, insanla heyvanlar aləminin ağıl (düşuncə, şüur) fəaliyyətinin bütün növləri, tipləri

(induksiya, deduksiya, analiz, sintez, mücərrədləşdirmə) ümumidir. Bu da təbiidir, belə ki, insan genetik cəhətdən heyvanlar aləmindən çıxmış, canlıların ən yüksək inkişaf etmiş formasıdır və onların arasında, hətta ağlı, şüuri fəaliyyətdə ümumi cəhətlər olmalıdır. Lakin şüuri fəaliyyət hələ heç də təfəkkür fəaliyyəti deyildir; təfəkkür fəaliyyəti şüuri fəaliyyətin bir növüdür, onları eyniləşdirmək həm elmi, həm də metodoloji baxımdan səhvdir.

Diləqədərki təfəkkürün mövcud olmasını sübut etmək üçün bir sıra alimlər məşhur psikoloq L. S. Vıqotskinin sözlərinə müraciət edirlər. O, yazır: «Kolerin təcrübələrində biz belə bir şeyin tam aydın sübutu ilə qarşılaşırıq ki, intellektin rüşeymləri, yəni sözün xüsusi mənasında təfəkkür heyvanlarda nitqin inkişafından asılı olmayaraq meydana çıxır və onun nailiyyətləri ilə bağlı deyildir. Meymunların düzəltdikləri və işlətdikləri alətlərlə və məsələlərin həlli zamanı dolayı yolların tətbiqi ilə ifadə olunan ixtiraları, heç şübhəsiz, təfəkkürün inkişafında ilk mərhələ, lakin nitqəqədərki mərhələ təşkil edir» 13. L. S. Vıqotskinin fikrincə, təfəkkür və nitq mənşəcə tamamilə fərqli köklərə malikdir, buna görə də nitqəqədərki (diləqədərki) təfəkkürün mövcudluğu heç bir şübhə oyatmır.

SSRİ Elmlər Akademiyasının nəşr etdiyi «Ümumi dilçilik» adlı əsərdə də dillə təfəkkürün eyni zamanda yaranması tezisinə qəti surətdə etiraz edilir. Əsərin iki bölməsində («Diləqədərki təfəkkür problemi» - səhifə 30-39 və «Dil və təfəkkürün əlaqəsinin bəzi xüsusi məsələləri» - səhifə 387-397) belə bir fikir irəli sürülür ki, dilə qədər də təfəkkür mövcud olmuşdur. K. Q. Kruşelnitskayanın sözlərində bu fikir öz aydın ifadəsini tapır: «Dil və təfəkkürün qarşılıqlı əlaqəsi problemi ilə bağlı olaraq daha tez-tez müzakirəyə məruz qalan bəzi məsələləri nəzərdən keçirərkən diferensiallaşdırılması mümkün olan yanaşma (idrakı və kommunikativ yanaşmanı fərqləndirmə) tamamilə zəruri görünür. Aşağıdakı suallar müxtəlif xülasələrlə əsas məsələ ətrafında mərkəzləşir: dil və təfəkkür arasında tam paralellik mövcuddurmu? Dilsiz təfəkkür mümkündürmü? Dildə olan hər şeymi təfəkkürlə əlaqədardır?

Dilsiz təfəkkür mümkündürmü, adətən mənfi cavab verib təsdiq edirlər ki, təfəkkür üçün dilin iştirakı zəruridir. Lakin burada çox vaxt iki anı qarışdırırlar: 1) təfəkkürün meydana çıxmasında əsas olmaq etibarilə dilin rolu və 2) fikrin bütün komponentlərinin ünsiyyət aktında müstəqil verbal (sözlü) ifadəsi. Tamamilə haqsız olaraq birincinin mütləqliyinə görə fikrin bütün komponentlərinin hər bir cümlədə eksplisit (açıq ifadəsi olan) sözlü ifadəsinin zəruriliyi nəticəsi çıxarılır»1. Sözlü dillə (nitqlə) təfəkkürün əlaqəsinin inkar edilməsi onların eyni zamanda əmələ gəlməsini dolayı yolla danmaq deməkdir: «... dilin təfəkkürlə əlaqəsinin «səsli» sözlər vasitəsilə həyata keçməsi heç də zəruri deyildir» 15.

Adətən, diləqədərki təfəkkürdən danışarkən dilçilər psikoloqların heyvanlar aləmindən gətirdikləri misallarla kifayətlənirlər, çünki insanın ulu əcdadlarının, hələ insanlaşmamış insanabənzər meymunların necə ünsiyyət saxladıqları haqqında hətta fərziyyə belə irəli sürmək mümkün deyildir. İnsanabənzər meymunların necə

əlaqə (biz «ünsiyyət» demək istəməzdik) saxlaması, əməklə əlaqədar olaraq bu əlaqənin ünsiyyətə çevrilməsi, ünsiyyət tələbatı nəticəsində ünsiyyət vasitəsi olan dilin yaranması ayrıca bir problemdir - bu problem haqqında müxtəlif fərziyyələr irəli sürmək olar.

Heyvanlarda təfəkkürün varlığından danışmaq olarmı? Təfəkkür fikirlə əlaqədardır (hər iki ərəb sözü eyni kökdəndir). Təfəkkürdən danışdıqda ilk növbədə düşünmək, fikirləşmək bacarığı nəzərdə tutulur. Hətta məntiqi olmayan - yəni məfhum, hökm və nəticə vasitəsilə qavranılmayan təfəkkür belə fikirləşmək bacarığını nəzərdə tutur. heyvanların fikirləşdiyini iddia etmək olarmı? Fikirləşmək (yəni təfəkkürqabiliyyəti) yalnız insanlara xas xüsusiyyətdir. Hətta heyvanların ən yüksək inkişaf pilləsində duran meymunun hündür bir yerdə qoyulmuş bananı götürmək üçün bir sıra müvəffəqiyyətsiz təşəbbüsdən sonra bir neçə şüvülü (çubuğu) bir-birinə keçirməsi də fikrin, yəni təfəkkürun iştirakı olmadan baş verir. Biz bir neçə gündən sonra bananı başqa hündür bir yerdə qoysaq, meymun onu götürmək üçün birbaşa şüvülləri bir-birinə keçirib ondan istifadə etmir, əvvəlki kimi bir sıra müvəffəqiyyətsiz təşəbbüslərdən sonra yavaş-yavaş (təcrübə nəticəsində) şüvülləri birləşdirib ondan istifadə etmək qənaətinə gəlir. Meymunda təfəkkür olsa idi, ikinci təcrübədə o, birbaşa bir neçə gün əvvəl etdiyi kimi şüvülləri bir-birinə keçirib ondan əmək aləti kimi istifadə edərdi. P. P. Blonski və başqalarının tədqiqatları sübut etmişdir ki, yaddaş yalnız insana xas xüsusiyyətdir, çünki o, ən yüksək psiki funksiyalarla, o cümlədən əsas etibarilə nitqlə əlaqədardır. İt suda boğulan uşağı xilas edərkən fikirləşmir ki, uşağı sudan çıxarmasa, o boğulub ölə bilər. Uşağın əvəzinə suya gəlincik düşsə idi, yenə elə hərəkət edərdi. Pişik anbardakı siçanları tutub yeyərkən fikirləşmir ki, anbardara yaxşılıq edir. Heyvan ümumiyyətlə fikirləşmir. Bir halda ki, heyvan fikirləşmir, onda heyvanların təfəkkürə malik olmasından danışmaq da mənasızdır. Bu baxımdan A. Axundovun aşağıdakı sözləri də öz əhəmiyyətini itirir: «Əlbəttə, təfəkkürün diləqədərki bu növü yalnız heyvanlara aid olduğundan onun dil və təfəkkür problemi ilə, o cümlədən, dilçilik elmi ilə əlaqəsi yoxdur»16. Çox güman ki, insanın ulu əcdadı insanabənzər meymun da təfəkkürə malik olmamışdır. Yalnız insanabənzər meymun insana çevrilərkən səsli-sözlü dil əldə etdikdə, bu proseslə yanaşı, onunla eyni zaman-da təfəkkür də əldə edir.

B. F- Porşnev haqlı olaraq yazır: «Təfəkkür, şüur, iradə, şəxsiyyət - bunlar nitq funksiyasının başqa adları deyildir, lakin onun mürəkkəb törəmələridir. Nitqsiz təfəkkür, şüur, iradə, şəxsiyyət yoxdur və ola da bilməz. Vıqotski və onun ardıcılları «nitq təfəkkürü», «nitq-təfəkkür» ifadələrini işlədirlər. Uzun zaman dilçilikdə və məntiqdə bu, mübahisə mövzusu olmuşdur. Fikir dildən əvvəl gəlirmi yaxud onlar həmişə, vəhdətdə olmuş və vəhdətdədir, yəni biri digəri olmadan mövcud deyildir. Burada əsas etibarilə cümlə və hökmün, qrammatikanın qanunları və məntiqin qanunlarının, söz və məfhumun oxşar və fərqli cəhətləri nəzərdə tutulur. Burada mürəkkəb qarşılıqlı asılılıq və müəyyən bir şeydə qarşılıqlı ziddiyyət təzahür edir, lakin müzakirələr nəticəsində daha çox aydın olmuş və hamı tərəfindən qəbul edilmişdir ki, *dilsiz və diləqədər təfəkkür mümkun deyildir* (kursiv mənimdir - Ə. R. )». Hələlik biz ali funksiya adlananlar haqqında danışırıq. Onların hamısı, o cümlədən təfəkkür də nitq funksiyasından törəmədir. Nitq təfəkkür

aləti deyil (bu illüziya uzun müddət" nitqin fundamental əhəmiyyətini başa düşməyə mane olmuşdur), əksinə, təfəkkür nitqin məhsuludur. İnsanın bütün fiziki ali psiki fəaliyyəti heterogen 17 deyil, homogendir 18: onların hamısı gövdəsi və kökləri nitq olan bir ağacın budaqları və meyvələridir 19. Gerçəklik, bizi əhatə edən maddi aləm yalnız sözlərlə, nitqlə - istər səsli, istərsə daxili nitq olsun - ümumiləşdirildiyi, konkretləşdirildiyi, mücərrədləşdirildiyi, abstraktlaşdırıldığı, bir sözlə, məfhum və hökm şəklində təzahür etdiyi üçün təfəkkür bilavasitə nitqlə əlaqədardır. İnsan dili isə nitqdə təzahür edir, nitqdə reallaşır. Buna görə də dil bilavasitə, birbaşa deyil, nitq vasitəsilə təfəkkürlə əlaqələnir. Təfəkkürün təzahür forması, ifadə forması olan nitq yaxud nitqin formalaşma mənbəyi olan təfəkkür yalnız və yalnız insana xas xüsusiyyətdir, nemətdir. Təfəkkürü nitqsiz, nitqi təfəkkürsüz təsəvvür etmək qeyri-mümkündür. Səsli, sözlü insan dili də nitq vasitəsilə təfəkkürlə, yüksək abstraksiya məhsulu olan şüurla əlaqədar olduğu üçün yalnız və yalnız insana məxsusdur, insana xas xüsusiyyətdir.

Maddi aləmin əşya və hadisələrinin beyində dildən kənar hər hansı bir inikası daha geniş mənada şüuri fəaliyyətin nəticəsidir. Artıq deyildiyi kimi, şüuri fəaliyyət təkcə təfəkkür fəaliyyəti ilə məhdudlaşmır. Maddi aləmin əşya və hadisələri təfəkkürdən başqa şüurun digər sahələrində də inikas edə bilər. Heyvanların məqsədəuyğun hərəkətlərindən danışarkən onların təfəkküründən deyil, maddi aləmin onların şüurunun digər sahələrindəki inikasından bəhs etmək lazımdır. Belə olduqda diləqədərki təfəkkür problemi öz-özünə aradan qalxmış olur. Dilə qədər heç bir təfəkkür mövcud olmamışdır. Təfəkkürün dildən əvvəl mövcud olmadığını sübut etmək üçün bir sıra dəlillər gətirmək olar. Psiki xəstəlik zamanı insanın təfəkkür qabiliyyəti, düzgün fikirləşmə, məntiqi mühakimə qabiliyyəti pozulur, lakin bu onun nitq qabiliyyətinin pozulmasına səbəb olmur: xəstə nitq qabiliyyətini saxlayır, lakin onun nitqində məntiqi mühakimə, təfəkkür olmur. Təfəkkür nitqdən əvvəl mövcud olsa idi, afaziya, konfobulyasiya (psiki xəstəlik) hadisəsi zamanı mənşəcə daha qədim hesab edilən təfəkkürün (burada: məntiqi düşünmə qabiliyyətinin) pozulması (itməsi) ondan asılı olan və onun törəməsi olan nitq qabiliyyətinin də pozulmasına (itməsinə) səbəb olmalı idi. Halbuki belə bir hadisə baş vermir. İkinci bir dəlil. Çox güman ki, hamımız uşaqlıqda müəyyən vaxtlarda mənasız sözlər danışmış, mahnılar oxumuşuq. Belə nitqin sözlərinin hansı «dildən» götürüldüyü, ümumiyyətlə nə məna ifadə etdiyini heç kim deyə bilməz. Burada sadəcə olaraq nitq var, təfəkkür yoxdur. Bu hal uşaq oyunlarında özünü göstərir: sayma oyun zamanı çoxlu mənası olmayan söz və ifadələr işlədilir. Məsələn, «*Əmim oğlu... vızmə rəğə, çıx qırağa*», yaxud «*Əkil-bəkil quş idim, yuvamda oturmuş idim*» kimi saymalarda *vızmə rəğə* və *əkil-bəkil* ifadələri heç bir məna ifadə etmir.

Bu misallar sübut edir ki, mənşəcə nitq (insan dilinin təzahür forması) təfəkkürdən qədimdir. Nəhayət, təfəkkürün nitqdən əvvəl mövcud ola bilməməsini müasir neyropsikologiya elminin sübut etdiyi üçüncü, lakin əhəmiyyətinə görə ən əsaslı olan dəlil, böyük beyin yarımkürələrində xüsusi nitq mərkəzləri (baş beynin alın və gicgah hissələrində) olduğu halda xüsusi fikir mərkəzlərinin olmamasıdır. Əgər təfəkkür nitqdən əvvəl mövcud olsa idi, böyük beyin yarımkürələrində onun öz xüsusi mərkəzləri olmalı və sonralar

bu mərkəzlərin təsiri ilə nitq mərkəzləri yaranmalı idi. Əslində isə belə olmamışdır - baş beyində (böyük beyin yarımkürələrində) xüsusi fikir mərkəzləri yoxdur və heç vaxt da olmamışdır. Dilə qədər sözün geniş mənasında şüur mövcud olmuşdur. Buna görə də diləqədərki şüur problemindən danışmaq olar. Bu problem isə dilçiliyin deyil, psikologiya elminin tədqiqat obyektidir.

## *Dil və Şüur*

K. Marks dili real praktik şüur adlandırır. K. Marksın dilə verdiyi bu tərif dilin insan həyatındakı rolunu dəqiq müəyyənləşdirir. Həqiqətən də belədir. İnsanı əhatə edən gerçəklik, maddi varlıq onun şüurunda inikas olunur və həmin inikas dil vasitəsilə reallaşdırılır, başqalarına çatdırılır.

İnsanı əhatə edən mühiti, gerçəkliyi xəyalən bir-biri ilə sıx qarşılıqlı münasibətdə olan dörd sistemə ayırmaq olar:

1) təbiət sistemi;

2) cəmiyyət sistemi;

3) şüur sistemi;

4) dil sistemi.

İstər tarixi, istərsə elmi-fəlsəfi baxımdan təbiət sistemi bu sistemlər arasında ilkindir; belə ki, insan cəmiyyəti, şüur və dil mövcud olmadığı bir dövrdə də bizi əhatə edən təbiət, maddi aləm, gerçəklik mövcud olmuşdur. Materialist fəlsəfə materiyanı birinci, ilkin, şüuru isə ikinci, törəmə qəbul edir. Buna görə də dilçilikdə də funksiyasına görə şüur və dil sistemi təbiət sisteminə və cəmiyyət həyatının material cəhətinə münasibətinə görə törəmə, ikincidir. Şüur və dil sistemləri insanla, daha doğrusu cəmiyyətlə birlikdə yaranmışdır. Bu sistemlər insan məişətinin zəruri sahələrini ifadə edir və onun əmək fəaliyyəti nəticəsində bir-biri ilə sıx əlaqələnmişdir. Əmək - bütün insan həyatının birinci şərtidir. Həm də o dərəcədə belə bir əsas şərtdir ki, biz müəyyən mənada deməliyik: insanın özünü əmək yaratmışdır. Bəli, əmək insan şüurunu, dili də yaratmışdır. Əvvəlcə əmək, sonra isə onunla birlikdə aydın nitq iki ən başlıca amil olmuş və bunların təsiri altında meymun beyni tədricən insan beyninə çevrilmişdir: bu beyin meymun beyninə çox bənzəməklə bərabər, böyüklüyü və mükəmməlliyi cəhətdən ondan olduqca üstündür. Eyni zamanda göstərmək lazımdır ki, şüur da əməyə və dilə təsir edərək hər ikisinin təkmilləşməsinə kömək edir: Beynin və ona tabe olan hissələrin, getdikcə daha çox aydınlaşan şüurun, abstraksiya və əqli nəticə çıxarmaq bacarığının inkişafı əməyə və dilə əks-təsir göstərərək, bunların hər ikisinə daha da inkişaf etmələri üçün getdikcə yeni-yeni

təkanlar vermişdir. Qarşılıqlı münasibətdə olan şüur və dil insan cəmiyyətinin formalaşmasında başlıca rol oynamışdır. Şüur insanın əmək fəaliyyəti prosesində dillə qarşılıqlı fəaliyyət göstərərək özü fəaliyyət olur; dil isə real praktik şüur olduğundan şüuru ifadə edir və formalaşdırır.

«Dil və şüur» problemi ilə əlaqədar olaraq dilçilik elmi aşağıdakı nəzəri məsələləri aydınlaşdırmalıdır: Şüura münasibətdə dilin funksiyaları necədir? Dilə münasibətdə şüurun funksiyaları necədir? Təfəkkürə münasibətdə dilin funksiyaları necədir? Dilə münasibətdə təfəkkürün funksiyaları necədir? Bu sualları aydınlaşdırmaq üçün irəli sürülən problemləri dillə və nitqlə əlaqələndirmək lazımdır.

1. Şüura qarşı münasibətdə dilin funksiyaları necədir?

1. 1. Bu funksiyalardan ən başlıcasını belə göstərmək olar: Dil real praktik şüurdur: dil şüurun praktikləşməsini, reallaşmasını təmin edir; dil başqa insanlar üçün mövcud olan və yalnız bununla da mənim özüm üçün də mövcud olan praktik real şüurdur və şüur kimi dil də yalnız ehtiyacdan, başqa insanlarla ünsiyyət ehtiyacından doğur. Deməli, dil şüur aktlarını formalaşdıran və reallaşdıran, onları praktikləşdirən alət rolunu oynayır. Öz-özlüyündə şüur aktları bizə hələ heç bir şey vermir. Yalnız şüurun hər aktını sözlə birləşdirdikdə və yaxud ifadə etdikdə insan həmin şüur aktını reallaşdırır, praktikləşdirir. Sözə çevrilməyən, söz şəklində formalaşdırılmayan şüur aktı, əvvələn, həmin aktı daşıyan fərd üçün anlaşılmaz, qeyri-müəyyən qalır; ikincisi, həmin şüur aktı fərdin ətrafında olan digər fərdlərə heç məlum olmur.

1. 2. Şüura qarşı münasibətdə dilin birinci funksiyasından onun ikinci funksiyası meydana çıxır: dil şüurun ifadə vasitəsidir. Cəmiyyət ayrı-ayrı fərdlərin topçusundan ibarətdir və bu toplu cəmiyyətin şüurunu əmələ gətirir. Cəmiyyətin şüurunun məzmunu həmin cəmiyyətin dili, daha dəqiq desək, leksika və dilin qrammatik quruluşu vasitəsilə təsbit və ifadə edilir. Lakin elə buradaca qeyd etmək lazımdır ki, leksika və dilin qrammatik quruluşu vasitəsilə cəmiyyətin şüurunun bütün məzmunu deyil, yalnız şüurun inkişafının və fəaliyyətinin elə nəticələri təsbit və ifadə edilir ki, bunlar dil quruluşunun (strukturunun) ünsürləri (elementləri) ilə əlaqələndirilmiş olur və ümumiləşdirilir, şəxsiyyət xaricində (şəxsiyyətdən asılı olmayan) dilin quruluşunda təsbit edilir. Ayrılıqda götürülmüş fərdin, insanın fəaliyyətdə olan şüurunun məzmunu, dil ünsürlərinin vahid şəkildə birləşdirilməsi vasitəsilə nitq ardıcıllığında ifadə edilir.

1. 3. Dil - şüur fəaliyyəti (əqli fəaliyyət) proseslərinin modelləşdirilməsi şərti və vasitəsidir. İnsanın nitq fəaliyyəti, dilin nitqdə tətbiqi, nitq zəncirinin inkişaf etdirilməsi, genişləndirilməsi şüurun məzmununun inkişaf etdirilməsini obyektivləşdirir. Bununla da şüurun məzmununun təkcə dinləyicilər və oxucular tərəfindən deyil, habelə həmin fikrin müəllifinin özünün də qavramasına imkan yaranır. Beləliklə, dil insanın öz şüurunun fəaliyyətini onun özü tərəfindən dərk edilməsi şərtinə çevrilir. Bunu şüura qarşı münasibətdə dilin üçüncü funksiyası adlandırmaq olar.

Öz şüurunun fəaliyyətinin insan tərəfindən dərk edilməsi ona öz şüurunun fəaliyyəti üzərində nəzarət qoymaq imkanı verir. Dil şüur aktlarını obyektivləşdirərək şüurun fəaliyyətini onun inikas etdiyi maddi aləmin xüsusiyyət və əlamətləri ilə əlaqələndirməyə şərait yaradır: nitq modeli modelləşdirilən obyektlə tutuşdurula bilər və bununla da nitq modeli ilə onun arxasında duran şüur fəaliyyətini uzlaşdırmaq, uyğunlaşdırmaq, uyğun gəlməyən cəhətləri düzəltmək imkanı təmin edilmiş olur.

İnsan şüurunun yaranması və inkişafında dil görkəmli rol oynamışdır. Dil şüur aktlarının insaniləşməsinin əsas şərtlərindən biri olmuşdur. Hətta F. Enqels insan şüurunun (F. Enqels beynin deyir) formalaşmasında dili əməkdən sonra ikinci amil hesab edir: «Əvvəlcə əmək, sonra isə onunla birlikdə aydın nitq iki ən başlıca amil olmuş və bunların təsiri altında meymun beyni tədricən insan beyninə çevrilmişdir. Şüurun rüşeymlərinə bəzi heyvanlarda da təsadüf edirik. Xüsusən son zamanlar meymunlarla aparılan təcrübələr sübut edir ki, ibtidai formada da olsa onlar şüura malikdirlər. Şüurun rüşeymləri insanın hələ insana çevrilməmiş ulu əcdadları olan insanabənzər meymunlarda da olmuşdur. Lakin bu rüşeymlər fikirlə əlaqəli olmamış və fikirlə zənginləşməmişdir. Yalnız dil hissi inikası ümumiləşdirməyə və bunların əsasinda məntiqi inikas qurmağa imkan yaratmışdır. Bu, əmək fəaliyyətinin şüurlu fəaliyyət olmasının həm səbəbi, həm nəticəsi, həm də şüur aktlarının insaniləşdirilməsinin əsas şərti idi.

2. Dillə şüur arasındakı münasibət təkcə dilin şüura təsiri kimi birtərəfli münasibət deyildir, iki-tərəfli, qarşılıqlı münasibətdir, yəni dil şüurun formalaşmasına, inkişafına, reallaşmasına, praktikləşməsinə kömək etdiyi kimi, şüur da dilə təsir göstərir, onun inkişafında mühüm rol oynayır. Buna görə də »Dil və şüur» problemindən danışarkən dilə qarşı münasibətində şüurun funksiyaları məsələsini də nəzərdən keçirmək lazımdır. Şüura qarşı münasibətdə dilin funksiyaları problemində olduğu kimi dilə qarşı münasibətdə şüurun funksiyaları problemi də mütəxəssislər, xüsusən psikoloqlar tərəfindən hələ lazımınca tədqiq edilməmişdir və problemin həlli hələ də öz növbəsini gözləyir. Buna görə də dilçilərin bu problem ətrafında fikir söyləməsi çox çətindir. Bununla belə dilə qarşı münasibətdə şüurun əsas, başlıca funksiyaları haqqında bəzi fikirlər söyləmək olar.

2. 1. Şüur, onun fəaliyyəti, onun inkişafı dilin inkişafı üçün əsas şərtdir. Şüurun fəaliyyəti və inkişafı ilk növbədə bilavasitə dilin leksik-semantik sistemində dəyişikliklərin baş verməsinin, leksik-semantik sistemin inkişafının əsas şərtlərindəndir. Düzdür, leksik-semantik sistemdəki dəyişmələr dilin fəaliyyətinin ictimai şəraitində cəmiyyətin dilə təsirinin bilavasitə nəticəsidir. Lakin bu inkar edilməz həqiqətdir ki, cəmiyyət dilə abstrakt surətdə təsir göstərmir; cəmiyyət dilə öz təsirini bilavasitə göstərmir (qeyd etmək lazımdır ki, bəzən cəmiyyət dilə, onun inkişafına bilavasitə də təsir göstərir, onun inkişafının qayğısına qalır; bəzən cəmiyyət hətta dil sahəsində, dil quruculuğu sahəsində dövlət siyasəti yeridir), şüur, ictimai şüur vasitəsilə dilə təsir göstərir; yalnız şüurun fəaliyyəti sahəsinə daxil olanlar sözlərin mənalarına və onların əlaqəsinə təsir göstərə bilər, şüurun qəbul etmədikləri dilin leksik-semantik sisteminə təsir göstərə bilmir. Şüurun iradi vəziyyəti,

fikri, emosiyası sahəsində baş verən dəyişikliklər həyatda yeni mənaların yaranmasına, bu mənaların dildə təsbit edilməsinə, köhnə mənaların, yəni şüur üçün aktual olmayan mənaların isə dildən çıxmasına mövcud olan mənaların və mənalar seriyasının sözdə və sözlərdə yenidən paylanmasına səbəb olur. Güman etmək olar ki, şüurun nəzarət edilməyən iştirakı ilə qrammatik mənalar da yaradılır və yenidən təşkil edilir («şüurun nəzarət edilməyən iştirakı» dedikdə biz bunu nəzərdə tuturuq ki, qrammatik mənaların yaradılmasında da şüur iştirak edir, lakin biz bu iştirakı hiss. etmirik, şüurun bu iştirakına «şüurlu nəzarət» edə bilmirik - belə çıxır ki, qrammatik mənalar öz-özünə yaranır, onların yaradılmasında məqsədəyönəldilmiş şüur iştirak etmir). Deməli, dilə qarşı münasibətdə şüurun funksiyalarından .biri dilin leksik-semantik sisteminin dəyişməsi və inkişafında şüurun bilavasitə, qrammatik mənaların yaranması və( bəzən) dəyişməsində şüurun nəzarət edilməyən iştirakıdır.

2. 2 Şüur nitqin inkişafının, daha doğrusu, dilin nitq şəklində fəaliyyət göstərməsinin şərti və əsas səbəbidir. Dil mexanizmi öz-özlüyündə nitq hərəkəti intersiyasına malik deyildir. Dil mexanizmi yalnız şüurun fəaliyyəti sayəsində nitq fəaliyyətinə oyadılır və real nitq kimi fəaliyyət göstərir. «Məna-mətn» tipli «törədici» modellər düzəltmək cəhdləri mənasızdır, çünki belə cəhdlər nitq quruluşunun yeganə hərəkətverici qüvvəsini - fəaliyyətdə olan şüuru nəzərdə tutmur. Təbii olaraq, şüurun fəaliyyətinin tipləri - situasiyalı, şəxsi, tarixi və s. dəyişdikdə onların nitqin quruluşuna təsiri də dəyişir, nəticədə nitqin quruluşunun (strukturunun) tipləri də dəyişir. Xətti inkişaf edən nitq şüurun fəaliyyətinin özünəməxsus işarə modelindən başqa bir şey deyildir. Belə nitq şüurun fəaliyyətinin bəzi cəhətlərini obyektiv öyrənmək imkanı verir.

2. 3 Buradan da dilə qarşı münasibətdə şüurun ən mühüm funksiyalarından biri - nitq və dil üslublarını formalaşdırmaq funksiyası meydana çıxır. Dil və nitqin belə tiplərinin (yaxud nitq üslublarının ) sabit sistemlərinin əsasını təşkil edən nitq quruluşunun (strukturunun) tipləri həmişə şüurun fəaliyyətinin bu və ya digər sabit fərqi ilə şərtlənir. Nəzərə almaq lazımdır ki, dilin funksional üslubları nitq tiplərinin sabit sistemlərindən kənara çıxmaq hallarıdır. Dilin funksional üslubları son nəticədə cəmiyyətin fəaliyyətinin, başqa sözlə desək, ictimai, kollektiv şüurun fəaliyyətinin müxtəlif tiplərinə əsaslanır. Bütün bunları nəzərə alsaq, aydın olar ki, dilin üslublarının formalaşmasında şüur necə bir aparıcı, təyinedici, istiqamətverici rol oynayır.

2.4 Dilə qarşı münasibətdə şüurun daha bir funksiyasını göstərmək lazımdır. Bu da ondan ibarətdir ki, şüur nitqin inkişafına, nitq üçün dil ünsürlərinin seçilməsi və onların arasında nitqi əlaqənin yaradılmasına, dil normalarının gözlənməsi və ya pozulmasına, yaranan nitq quruluşunun ( strukturunun) onun məzmununa uyğun gəlmə dərəcəsinə, nitq quruluşunun (strukturunun) daxilində məntiqi yaxud qeyri-məntiqi əlaqəyə, məzmunun real şəraitə uyğun gəlməsinə və s. nəzarət edir.

Dillə (nitqlə) şüur, şüurla dil (nitq) arasında qarşılıqlı münasibətləri qısaca belə xarakterizə etmək olar.

3. «Dil və təfəkkür» problemini ayrılıqda nəzərdən keçirəcəyik, lakin təfəkkür şüur proseslərinin ən başlıcası olduğu üçün və dilçilikdə » Dil və təfəkkür« problemi » Dil və şüur« probleminin əsas tərkib hissəsini təşkil etdiyi üçün» Dil və şüur« problemində təfəkkürə qarşı münasibətində dilin funksiyaları və dilə qarşı münasibətdə təfəkkürün funksiyaları məsələsini qısaca olsa da» Dil və şüur« problemində nəzərdən keçirək.

Problemin izahına keçməzdən əvvəl bir məsələni qeyd etmək lazımdır. Artıq dediyimiz kimi, dilçilikdə »Dil və şüur« problemi əvəzinə» Dil və təfəkkür« problemi tədqiq edilir, daha dəqiq desək», «Dil və şüur« problemi »Dil və təfəkkür« problemi ilə əvəz edilir. Bu ondan irəli gəlir ki, dilçilik məntiqi qrammatika cərəyanlarının, habelə Kartezian 20, rasionalizm fəlsəfi cərəyanlarının ideyaları və bu ideyalara əsaslanan qrammatikaların dilçiliyə güclü təsiri altında olmuşdur.

Məhz »Dil və şüur« problemi »Dil və təfəkkür« problemi ilə əvəz edildiyi üçündür ki, dilçilik nəzəriyyəsinin əsas problemi olan sözün mənasinin mahiyyəti problemi elmdə birtərəfli işıqlandırılmışdır. Bu birtərəflilik özünü onda göstərir ki, sözün mənası ilə həmin sözün ifadə etdiyi məfhum eyniləşdirilmiş yaxud məna struktur-dil fenomeni elan edilmiş və yenə də yalnız məfhumla (anlayışla) əlaqələndirilmişdir. Belə bir səhv təsəvvür yaranır ki, şüurun fəaliyyətində məfhumdan başqa heç bir şey yoxdur, guya sözün semantikası və frazeologizmlərin məfhum haqqında məlumatdan başqa heç bir məzmunu yoxdur.

Bizcə, »Dil və təfəkkür« probleminə istər fəlsəfədə, istərsə də dilçilikdə şüur proseslərinin bir hissəsi, düzdür, ən başlıca, əsas, mərkəzi hissəsi kimi baxılmalı, bu problem daha geniş əhatəli »Dil və şüur« problemini əvəz etməməlidir.

Məlum olduğu kimi, təfəkkür gerçəkliyin, maddi aləmin insan beynində məfhum, hökm və nəticə formasında inikası prosesinə deyilir. Təbiidir ki, bu inikas abstrakt, mücərrəd şəkildə deyil, sözlər, söz birləşmələri və cümlələr şəklində olur.

İndi görək insanların təfəkkürünə qarşı münasibətdə dilin funksiyaları necədir.

3. 1. Təfəkkürə qarşı münasibətdə dilin birinci və əsas funksiyası fikrin formalaşmasında onun iştirak etməsidir. Təfəkkür gerçəkliyin, maddi aləmin ümumiləşdirilmiş şəkildə insan şüurunda inikas etməsi kimi fəaliyyətdir, prosesdir. Buna görə də o, bir şüur prosesi kimi həmişə sözə və cümləyə möhtacdır. Sözsüz və cümləsiz nə hökm, nə nəticə, nə də onların tərkib hissəsi olan məfhum həyata keçirilə bilməz, başqalarına çatdırıla bilməz, »şey bizim üçün« deyil, »şey özündə« olar. Bunu fəlsəfi planda dialektik materializm, ali əsəb sistemi fəaliyyətinin fiziologiyası planında, İ. P. Pavlov inkaredilməz dəlillərlə sübut etmişlər. Sözsüz məfhum, cümləsiz isə hökm formalaşa bilməz, həyata keçirilə bilməz, gerçək ola bilməz.

3. 2. Təfəkkürə qarşı münasibətdə dilin ikinci funksiyası fikrin işi, fəaliyyəti haqqında məlumatı (informasiyanın) ifadə etməsidir. Təbiidir ki, dil fikri formalaşdırdıqda həmin fikir haqqında məlumatı da ifadə edir, yəni fikir mübadiləsini mümkün edir. Fikrin fəaliyyəti haqqında informasiyanı dilin ifadə etməsi funksiyası ünsiyyət prosesində nəhəng əhəmiyyətə malikdir və ünsiyyət prosesinin müvəffəqiyyətlə həyata keçirilməsinin əsaslarından və şərtlərindən biridir. Nitq müəllifinin fikrinin fəaliyyəti haqqında dilin vasitələri hələ ifadə edilmiş informasiyanı (məlumatı) qəbul edən dinləyici və ya oxucu, həmişə müəyyən itki və əlavələrlə olsa da fikrin fəaliyyətini bərpa etmək imkanı əldə edir.

3. 3. Təfəkkürə qarşı münasibətdə dilin. Üçüncü funksiyası dinləyicinin yaxud oxucunun nitqi qəbul edilən müəllifin fikrinə az ya çox dərəcədə adekvat olan fikrini oyatmaqdır.

3. 4. Dil, fikri oyadaraq, formalaşdıraraq, ifadə edərək insanın maddi aləmi, dünyanı, gerçəkliyi daha ətraflı, daha dərin başa düşməsinə, qavramasına kömək edir, gerçəklik haqqındakı informasiyanı tam və daha düzgün təhlil etməyə şərait yaradır. Təfəkkürə qarşı münasibətdə dilin bu dördüncü funksiyasını dilin qavramaq aləti funksiyası adlandırmaq olar.

3. 5. Təfəkkürə qarşı münasibətdə dilin beşinci funksiyası modelləşdirmə funksiyasıdır. Təfəkkür el bir əqli prosesdir ki, onun komponentləri elmdə məfhum, hökm və nəticə adlandırılan hissələrə bölünür. Təfəkkür prosesi və onun üzvlənməsi söyləmin inkişaf etdirilməsi prosesi ilə əlaqədar olur. Leksik və qrammatik ünsürlərinin ardıcıllığı, bu ünsürlər arasındakı əlaqə, onların tərkibi, məlum olduğu kimi, inkişaf etməkdə olan fikirdən sonra gəlir və onun özünəməxsus spesifik modelindən başqa bir şey deyildir.

4. Dilçilik, habelə »Dil və təfəkkür« problemi ilə əlaqədar olan başqa elm sahələri üçün maraqlı və həllini gözləyən problemlərdən biri də dilə qarşı münasibətdə təfəkkürün funksiyaları məsələsidir. Dilə qarşı münasibətdə təfəkkürün funksiyaları necədir? Bu funksiyaları qısaca nəzərdən keçirək.

4. 1. Dilə qarşı münasibətdə təfəkkürün funksiyalarından biri dil vahidlərinin işarələr kimi fəaliyyət göstərməsini təfəkkürün təmin etməsidir. Dil işarəsi səslənmə və məzmunun, material olanla ideal olanın vəhdətindən ibarətdir. Lakin işarədə ideal olan ona görə yaşayır, fəaliyyət göstərir, inkişaf edir ki, insanın fikri yaşayır, fəaliyyət göstərir, inkişaf edir işarələrin məzmununda təsbit edir. Dil işarəsinin məzmunu bu işarənin özündən fərqli olan, nə haqda isə informasiya ifadə etmək və oyatmaq qabiliyyətidirsə (bu »nə isə «həmişə əşaya, predmet və hadisədən ibarət olur - bir sözlə, obyektiv aləmin fikir tərəfindən qavranılan faktı olur yaxud bu »nə isə «fikrin özü olur), bütün hallarda məzmunun əmələ gəlməsində fikrin fəal iştirakı zəruridir. Sözdə onun özündən fərqli olan bir şey haqqında informasiya ifadə etmək yaxud oyatmaq imkanının yaranması üçün fikrin iştirakı vacibdir. Beləliklə, dil işarələrinin fəaliyyət göstərməsi üçün fikir əsas və ilkin şərtdir. Dil işarələri sisteminə xas olan məzmunlar sisteminin formalaşmasında şüurun fəaliyyətindən də danışmaq olar, çünki dil işarələrinin işarəvilik mahiyyətinin təmin edilməsində təkcə

təfəkkür deyil, bütövlükdə şüur da iştirak edir, lakin dil işarələri sisteminin məzmununun formalaşmasında şüurun başqa komponentlərinə nisbətən təfəkkür ölçülməz dərəcədə böyük rol oynayır. Bunu biz, məsələn, terminlər sahəsində leksik mənalar sisteminin formalaşmasında aydın görə bilərik. Prinsipcə heç kim inkar edə bilməz ki, dil işarələrinin işarəvilik mahiyyətini təmin etmək funksiyası təkcə təfəkkürə xas xüsusiyyət deyil, habelə şüura da xas xüsusiyyətdir. İnsan, şüuru, hər şeydən əvvəl, təfəkkür dil mexanizminin işarəvilik təbiəti üçün əsas şərtdir.

4. 2. Dilə qarşı münasibətdə təfəkkürün ikinci funksiyası onun semantikaya münasibətində meydana çıxır. Təfəkkürun bu funksiyası dil üçün, dilin elmi izahı üçün böyük əhəmiyyətə malikdir. Dilin leksik və qrammatik mənaları sisteminin inkişafı üçün təfəkkür əsas alətdir. Tədqiqatçı hər hansı çoxmənalı sözə diqqətlə nəzər salsa, görər ki, fikrin fəaliyyəti nəticəsində sözün mənasında semantik dəyişmə, rabitə, inkişaf baş vermişdir. İnsanın fikri, məsələn, quşun qanadı ilə təyyarənin qanadı (uçmaq prosesi), insanın ayağı ilə stolun ayağı (dayaq vasitəsi olmaq) və s. arasında daxilən əlaqə olduğunu sezmiş, bir sözlə, yaxın mənaların ifadəsini törətmişdir. Hər hansı bir dilin izahlı lüğətini nəzərdən keçirsək, çoxmənalı sözlərdə məna keçmələrinin insanın fikri proseslərinin nəticəsi olduğunu görərik. Məsələn, hər hansı bir dil ailəsindən bir dilin çoxmənalı felini götürsək, görərik ki, həmin felin bir mənası digər mənaları ilə sıx bağlıdır və mənanın keçməsi ondan irəli gəlir ki, insan fikri öz fəaliyyətində hərəkət, hal, proses, vəziyyət, situasiyalar arasında mövcud olan və əlaqə yaradan keçidləri sezə bilmişdir.

Təfəkkürün dilə, semantikanın inkişafına tesirini xüsusən terminologiya sahəsində aydın hiss etmək olur. Məlum olduğu kimi, termin məfhum semantikalı sözdür. Şüurun digər sahələrinin yaratdığı bütün mənalar terminin məzmunundan çıxarılır. Terminin mənasındakı bütün keçmə və əlavələr elm, texnika, inzibati və digər məfhumların keçmələri və əlaqələri haqqında aydın məlumat verir. Məfhumlar sisteminin inkişafı labud surətdə terminoloji mənalar sistemində dəyişikliklərin baş verməsinə səbəb olur. Təfəkkür semantikanın inkişaf aləti kimi həmişə açıq çıxış edir.

Qrammatik mənanın inkişafına təsir etdikdə təfəkkür gizli və ləng fəaliyyət göstərir. Qrammatik mənanın inkişafında təfəkkürun fəaliyyəti insanın şüurlu müdaxiləsi xaricindədir, bu prosesə insan nəzarət edə bilmir və bu mümkün deyildir; ayrı-ayrı fərdlərin təsiri ümumiyyətlə qeyri-mümkündür. Şairlər, yazıçılar, alimlər bu və ya digər sözü işlətdikdə, əlbəttə, fikirləşirlər ki, sözə yeni məna verilməsi müvəffəqiyyətlimi çıxır. Lakin onlar bilmirlər ki, qrammatik mənalar ayrı-ayrı adamların iradəsinə tabe deyildir. Qrammatik mənalar həmişə bu və ya digər dildən istifadə edən kollektivin mücərrəd, abstrakt fikrinin (habelə şüurunun) fəaliyyətinin nəticəsidir.. Qrammatik mənalar leksik mənaların və onların arasındakı əlaqələrin kortəbii-praktiki ümumiləşdirilməsi və mücərrədləşdirilməsinin nəticəsidir. Bu mücərrədləşdirmə bizim «dil təfəkkürümüzə» qrammatik mənalar kimi təsir edir. Ümumiləşdirmə və mücərrədləşdirmələr dilin daşıyıcılarının kütləvi tətbiqi prosesində yaranır və dildə ayrı-ayrı adamların arzusu, məqsədi ilə tətbiq

edilmir, onlar şüur tərəfindən nəzarət edilməyən zərurətdir. Bir halda ki, qrammatik mənaların yaranmasında ümumiləşdirmə və mücərrədləşdirmə prosesinə şüur (istər fərdi, istərsə ictimai şüur olsun) nəzarət etmir, belə olduqda qrammatik mənaların formalaşmasında təfəkkürün iştirakından danışmaq olarmı? Əlbəttə, olar. Ümumiləşdirmə və mücərrədləşdirmə fikrin fəaliyyətidir. Lakin bu fəaliyyət məntiqçilərin fikirləşdiyi kimi, sadəcə «məfhum», «hökm» və «nəticə» terminlərinin əhatə etdiyi modellər üzrə getmir - fikri ümumiləşdirmə və mücərrədləşdirmələrin qrammatik kateqoriyalar kimi ifadəsi çox mürəkkəb prosesdir. Buna görə də bu terminlərin heç biri təfəkkür fəaliyyətinin dilin qrammatik mənalar sistemində öz əksini tapmış nəticələrinə tətbiq edilə bilməz.

Qrammatik məna problemi və qrammatik mənanın formalaşmasında təfəkkürün iştirakı məsələsi müasir Dilçilik elminin ən mürəkkəb məsələlərindəndir.

4. 3. Dilə qarşı münasibətdə təfəkkürün üçüncü funksiyası nitqin tərtibində dil vahidlərini seçmək aləti olmasıdır. Nitqin inkişafının hər anında insana yalnız bir söz deyil, müəyyən sözlər, onların əlaqəsi, forması və kateqoriyası lazımdır, hər hansı cümlə deyil, müəyyən cümlə modelləri və tipləri lazımdır. Müəyyən dil ünsürlərinin seçilməsi əsasən artıq nitq zəncirinə daxil edilmiş əvvəlki dil ünsürləri ilə qabaqcadan müəyyənləşdirilir. Lakin bu qabaqcadan müəyyənetmə qəti deyil, təxminidir. O, bir qayda olaraq, nitqin bir neçə davamında təkcə birini, ən yaxşı və mükəmməl olanını seçmək imkanını saxlayır. Nitq söyləyən, hər şeydən əvvəl, öz fikrinin əmrlərinə məqsədəuyğun olanını seçir.

4. 4. Nəhayət, dilə qarşı münasibətdə təfəkkürün, dördüncü funksiyası nitqin quruluşuna nəzarət etməkdir. Adətən, nitqi qurarkən təfəkkür nəzarət aləti kimi çıxış edir. Bu nəzarət fəal olduqca nitq də bir o qədər düzgün qurulur, məntiqi, dəqiq və ifadəli olur. Başqa sözlə desək, təfəkkür nitq mədəniyyətinin əsas və başlıca şərtidir. Qeyd etmək lazımdır ki, şüur da nitqə nəzarət edir, lakin nəzarət funksiyasında şüurun emosional dairəsi təfəkkürün rolu ilə heç bir müqayisəyə gəlmir. Emosiya çox vaxt nitqin düzgünlük, səlislik, .dəqiqlik, məntiqilik kimi keyfiyyətlərinin müxtəlif formada pozulmasının əsas səbəbi olur, təfəkkür isə belə pozuntulara yol vermir.

«Dil və şüur, dil və təfəkkür» problemi ilə əlaqədar olaraq dilçilik elmi dilin müxtəlif sistemlərini və nitqi qəbul etdikdə ünsiyyət mexanizmi olan dilə və bu mexanizmin tətbiqi ilə yaranmış proses olan nitqə tətbiq edildikdə həmin prosesi diferensiallaşdırmalıdır.

«Dil insanlar arasında ən mühüm ünsiyyət vasitəsidir». Ünsiyyət mexanizmi kimi dil ayrılıqda götürrülmüş bir fərdin, insanın şüurunun fəaliyyəti ilə əlaqələndirilə bilməz - o, kollektivin, xalqın şüuru ilə əlaqələndirilə bilər. Nitq müəyyən situasiyada lazım olan «məzmunu» ifadə etmək üçün dil qanunları əsasında yaradılan dil işarələrinin ardıcıllığı kimi ayrı-ayrı fərdlərin, insanların şüurunun fəaliyyəti ilə əlaqədardır. Lakin nitq dil vasitələrindən, ünsürlərindən istifadə etdiyi üçün, birbaşa olmasa da hər halda,

kollektivin şüurunun fəaliyyəti ilə də əlaqədardır. Dil ünsiyyət mexanizmi kimi öz ünsürləri və onların sistemli təşkili ilə ayrı-ayrı insanların fikir və şüurunun fəaliyyəti üçün baza kimi zəruri olan şüur və təfəkkürün ictimai fəaliyyətinin nəticələrini təsbit edir. Nitq dil ardıcıllığı kimi öz quruluşu ilə fərdi fikrin, fərdi şüurun dinamikasını qeyd edir. Lakin fərdi təfəkkür prosesləri və şüurun fərdi prosesləri, ümumi bazaya-dil mexanizmində təsbit edilmiş şüurun ictimai fəaliyyətinin nəticələrinə malikdir. Digər tərəfdən, tarix boyu tədricən fərdi proseslərin məcmusu şüurun ictimai fəaliyyətinin nəticələrinə təsir göstərir; lakin bu nəticələr (bəziləri ləng, bəziləri nisbətən sürətlə) zaman keçdikcə dəyişir. Bunu biz leksik, söz yaradıcılığı və qrammatik mənalar sistemlərinin inkişafında daha aydın görə bilərik.

Dilin və nitqin modelləşdirmə funksiyasını nəzərdən keçirsək, aydın fərqlərin olduğunu görürük. Dilin strukturu, əvvələn, maddi aləmin quruluşunu, ikincisi, insan şüurunun və təfəkkürünün quruluşunu modelləşdirir. Məlum olduğu kimi, ayrı-ayrı sözlər maddi aləmin əşya və hadisələrinə, habelə məfhumlara uyğun gəlir. Lakin bu sözlər həm əşya və hadisələr sinfini, qrupunu, həm də ayrı-ayrı əşya və hadisələri ifadə etmək üçün işlədilir. Məsələn, ev sözü həm ümumiyyətlə insanların yaşadığı bina mənasını, həm də eyni zamanda müəyyən evi (mənim yaşadığım ev) bildirir. Bu, leksikanın modelləşdirmə funksiyasıdır. Bəs bu funksiyanın nitqdə və onunla müqayisədə dil mexanizmində özünəməxsus xüsusiyyətləri necədir? Nitqdə söz adlandırdığı əşya və hadisə ilə dilə nisbətən daha dəqiq, ciddi, müəyyən rabitədə, əlaqədə olur. Dil mexanizmi, ev, xəyal, getmək sözlərini irəli sürür və həmin sözlərdən hər birini bir neçə müxtəlif əşya, hadisə və məfhumla əlaqələndirmək imkanı təklif edir. Nitqdə bu imkanlardan biri həyata keçirilir, qeyri-müəyyənlik aradan qaldırılır, çünki nitq insan şüurunun tam müəyyən, fərdi fəaliyyətini ifadə edir, belə fəaliyyət isə söz qeyri-müəyyənliyini (semantik qeyri-müəyyənliyi) aradan qaldırmağı tələb edir.

Nitqin və dil mexanizminin modelləşdirmə funksiyasını qrammatik kateqoriyaların ifadəsi baxımından nəzərdən keçirək. Qrammatik kategoriyalar, formal və abstrakt olmalarına baxmayaraq gerçəkliyin və şüurun müxtəlif cəhətlərini modelləşdirir, həm də bu kategoriyalar gerçəkliyi və şüuru dil mexanizmi daxilində bir cür, nitq tərkibində başqa cür modelləşdirir. Nitq hissələri, hal və mənsubiyyət kateqoriyaları, felin Şəkil, növ və zamanları, kəmiyyət kateqoriyası, cümlə üzvləri və xüsusilə dil mexanizmi tərkibində obyektiv aləmin və insanın daxili aləminin müqayisə edilən üzvlənməsi ilə uyğun olur. Nitq hissələri ilə gerçəkliyin əşya, proses, keyfiyyət və xüsusiyyət, kəmiyyət və s. məfhumların əhatə etdiyi faktlar sinfi tutuşdurulur, qarşılaşdırılır, bir sözlə, nitq hissələri maddi real aləmin varlıqlarının əsas kateqoriyaları ilə müqayisə edilir. Digər qrammatik kategoriyalar da özünəməxsus formada real aləmin varlıq kateqoriyalarına bu və ya digər dərəcədə uyğun gəlir. Ola bilər ki, dilin qrammatik üzvlənməsi maddi aləmin əşya üzvlənməsi ilə bilavasitə, birbaşa uyğun olmasın. Ola bilər ki, dilin qrammatik quruluşu məntiqi baxımdan şüur və təfəkkür kateqoriyalarına aydın və ciddi uyğun gəlməsin. Lakin hər halda qrammatika, gerçəklik və şüurun uyğunluğu mövcuddur və aydın izlənilir. Qrammatik quruluş maddi aləmin və şüurun spesifik modelidir. Belə ki, şüurun və təfəkkürün qrammatik quruluş sahəsində qəbul etdiyi ümumiləşdirmə və

mücərrədləşdirməyə insan beyni tərəfindən nəzarət edilmir. Həmçinin qrammatik quruluşun maddi aləmi və şüuru modelləşdirməsi bilavasitə əşya və hadisələr əsasında deyil, onların dilin leksik sistsmində inikası əsasında həyata keçirilir. Bu ona gətirib çıxarır ki, dil mexanizminin və nitqin maddi aləmi və şüuru qrammatik modelləşdirməsi leksik modslləşdirməyə nisbətən fərqli əlamətlər üzrə baş verir. Artıq deyildiyi kimi, dil mexanizminin leksik üzvlənməsi mahiyyətcə eyni tipli olan əşya və hadisələr sinfinə uyqun gəlir. Nitq prosesinin leksik üzvlənməsi həm belə əşya və hadisələr sinfinin yaxud onun qavranılması aspektinin konkretləşdirilməsi deməkdir. Dil mexanizminin qrammatik üzvlənməsi, ciddi və qəti olmasa da maddi aləmin və şüurun kateqorial üzvlənməsinə uyğun gəlir. Nitq prosesinin qrammatik üzvlənməsi isə fərdi müdaxilə nəticəsində müəyyən hüdud dairəsində şəklini dəyişən maddi aləmin və şüurun kateqoriyaları arasındakı əlaqələrin bəzi ümumi qanunauyğunluqlarına uyğun gəlir. Lakin nitqdə kateqoriyaların fərdiləşdirilməsi baş vermir; isim ümumiyyətlə əşya adı, fel, ümumiyyətlə iş, hal, hərəkət bildirir və s. Nitq prosesinin qrammatik üzvlənməsi şüur və təfəkkür proseslərinin inkişafını modelləşdirir, maddi aləmin dil ünsürlərinin qrammatik modelinin ümumiliyini və onları ifadə etməyin ayrıca götürrülmüş bir adamın təfəkkürü tərəfindən müəyyən dərəcədə fərdi seçməsi və birləşdirməsi üsullarını birləşdirir. Nitq proseslərinin qrammatik üzvlənməsinə fərdi müdaxilə çox cüzidir, lakin bu, fərdi şüurun cümlənin qrammatik təşkilinə təsir etməsi fikrini inkar etmir.

**Deyilənləri qısaca olaraq belə yekunlaşdırmaq olar:**

**I.** Şüura münasibətdə dil bu funksiyaları yerinə yetirir:

a) Dil şüur aktlarının formalaşdırılması alətidir (Dil real praktik şüurdur);
b) Dil şüur fəaliyyətinin ifadə vasitəsidir (Dil mənim şüurumu başqalarına, bununla mənim özümə də anlaşıqlı edir);
v) Dil fəaliyyətdə olan şüurun aktlarının nitq kimi modelləşdirilməsi üçün şərt və vasitədir (Dil şüurun nitq modelini gerçəkliyin hadisələri ilə qarşılaşdırıb şüurun fəaliyyətinə nəzarət edir).

**II.** Təfəkkürə münasibətdə dil bu funksiyaları yerinə yetirir:

a) Dil fikrin formalaşdırılmasında iştirak edir;
b) Fikir mübadiləsini mümkün etmək üçün dil fikrin məzmunu haqqındakı informasiyanı (məlumatı) ifadə edir;
v) Dil dinləyicidə yaxud oxucuda nitq müəllifinin fikrinə az ya çox dərəcədə adekvat olan fikir oyadır;
q) Dil fikrin inkişafını modelləşdirir.

**III.** Dil ünsiyyət mexanizmi kimi kollektivin, xalqın şüuruna uyğun gəlir; nitq dil işarələrinin ardıcıllığı kimi ayrıca götürülmüş bir adamın, fərdin şüuruna uyğun gəlir.[21]

# *Dil və Təfəkkür*

Dilçiliyin, habelə bu problemlə əlaqədar olan bütün digər elm sahələrinin, ən mürəkkəb və aktual məsələlərindən biri dil və təfəkkürün qarşılıqlı əlaqəsi problemidir. Bu problemin mürəkkəbliyi hər şeydən əvvəl ondadır ki, həm dilin/ həm də təfəkkürün təbiəti mürəkkəb və ziddiyyətlidir. Dil və təfəkkür bir tərfdən insan beyninin məhsulu olduğu uçün bioloji (daha doğrusu, psikoloji) hadisə, digər tərəfdən isə insan özü ictimai varlıq olduğu üçün ictimai hadisədir. Dil və təfəkkürün ümumi spssifikası da onların ictimai və fərdi-psikoloji cəhətlərinin bir vəhdətdə birləşməsindədir. Dil və təfəkkürün münasibəti (söz və fikrin münasibəti şəklində) problemini qədim zamanlardan indiyədək iki cür həll etməyə çalışmışlar: 1) ya sözlə fikri (dil və təfəkkürü) tam eyniləşdirmişlər; 2) ya da onları tam fərqləndirmiş, aralarındakı bütun əlaqələri inkar etmişlər. Hazırda hər iki baxış müxtəlif variantlarda iki müxtəlif cərəyanın əsasında durur: 1) dillə təfəkkürü eyniləşdirməyə cəhd edən, insanın psikikasında təfəkkürə məxsus olan rolu dilə verməyə cəhd edən «mentalinqvistik» cərəyan və 2) dili təfəkkürdən ayıran, təfəkkürü dilxarici (ekstralinqvistik) hadisə hesab edən, təfəkkür problemini dilçilikdən çıxaran, ümumiyyətlə, təfəkkürü uydurma elan edən «mexanistik» (biheviorist) cərəyan.

Materialist fəlsəfə, materialist dilçilik dillə təfəkkür arasında mürəkkəb qarşılıqlı əlaqələrin olmasını qəbul edir. Bu əlaqəni ümumi şəkildə belə təsəvvür etmək olar. Dilin ifadə etdiyi mənanın (məzmunun) əsasını fikirlər təşkil edir. Dil vahidləri obyektiv aləmin əşya və hadisələri ilə məhz təfəkkürün, insan beyninin inikas fəaliyyəti vasitəsilə əlaqələnir. Bunlarsız dilin köməyi ilə insanlar arasında ünsiyyət mümkün olmazdı. Digər tərəfdən, idrak nəticələri obyektiv aləmin ünsürlərinin təfəkkürdə inikas edən material siqnalları olan dilin səs kompleksləri vasitəsilə möhkəmləndirilir, bu nəticələr isə idrakın sonrakı inkişafı üçün əsas olur. Buna görə də dili təfəkkür aləti hesab edirlər, təfəkkür və dilin münasibəti isə onların vəhdəti kimi qəbul edilir. Lakin bu vəhdət onların eyniliyi deyildir.

Materialist dilçilik dillə təfəkkürün sıx əlaqəsini daha geniş problemin: dil - təfəkkür - obyektiv gerçəklik yaxud çox vaxt sadəcə olaraq söz-fikir-əşya probleminin tərkib hissəsi kimi tədqiq edir. Bununla əlaqədar dillə təfəkkürün qarşılıqlı əlaqələrinin bəzi məsələlərini nəzərdən keçirək.

Dil və məntiqi təfəkkür probleminin əsas məsələsi üçdür: söz və məfhumun, cümlə və hökmün, qrammatik və məntiqi kateqoriyaların qarşılıqlı əlaqəsi.

**Söz və məfhum.** Dil və məntiqi təfəkkür probleminin əsas məsələlərindən biri söz və məfhumun qarşılıqlı əlaqəsidir. Söz dil kateqoriyası olduğu üçün dilçilik elmində, məfhum isə təfəkkür kateqoriyası olduğuna

görə məntiq elmində öyrənilir. Dillə tofəkkurün qarşılıqlı qırılmaz əlaqəsi, hər şeydən əvvəl, özünu sözlə məfhumun qarşılıqlı münasibətində göstərir, çünki biz maddi aləmin əşya və hadisələrinin insan beynində (təfəkkürdə) inikasını sözlər şəklində ifadə edir və başqalarına isə yalnız sözlər şəklində nəql edirik.

Söz və məfhum anlayışlarını aydınlaşdıraq.

Sözə istər fəlsəfi, istərsə də dilçilik baxımıidan çoxlu təriflər verilmişdir: Söz müəyyən məna bildirən səs toplusudur; Söz obyektiv aləmin əşya və hadisələrini adlandıran dil vahididir; Söz potensial cümlədir; Söz müəyyən məfhum, anlayış ifadə edən səslər kompleksidir; Söz fikrin maddi cildidir; Söz dilin əsas funksiyası adlandırmaq olan mustəqil mənalı vahididir və s. Bəzi dilçilər «söz» anlayışının olduğunu ümumiyyətlə inkar edir, sözün tərifi olmadığını deyirlər. Sözə müxtəlif təriflər verilməsindən, onun varlığının inkar edilməsindən asılı olmayaraq obyektiv surətdə söz mövcuddur; sözsuz ünsiyyəti təsəvvür etmək qeyri-mümkundur. Söz olmadan maddi aləmin əşya və hadisələrini şüurumuzda inikası olan məfhumları adlandıra bilmərik. Tədqiqatçılar haqlı olaraq göstərirlər ki, «söz- məfhumun yaranması və mövcud olmasının zəruri şərti və vasitəsidir. Söz olmadan məfhumun mövcud ola bilməsi baxışının əsasında təfəkkürün dil ilə idealistcəsinə qarşılaşdırılması durur»22. Buradan da sözlə məfhumun qarşılıqlı münasibəti məsələsi meydana çıxır.

Materialist fəlsəfə öyrədir ki, obyektiv aləmin cisim və hadisələrinin insan şüurunda inikasına məfhum deyilir. Ümumi qəbul edilmiş fikrə görə, «biz müəyyən inkişaf mərhələsində olan mütləq məfhumun gerçək şeylərdə şəkillərini görmək əvəzinə, gerçək şeylərin şəklini bəşəri məfhumlarda görmüşük... Fiqur anlayışı da sırf xarici aləmdən götürülmüşdür, heç də başda təmiz təfəkkürdən törəməmişdir. İnsanların fiqur anlayışına gələ bilmələrinədək, forması olan və formalarını müqayisə etdikləri şeylər olmalı idi»23.

Təfəkkür təsəvvürlə sıx bağlıdır. Təsəvvür maddi, obyektiv aləmin əşya və hadisələrinin əyani surəti olduğu üçün onların insan şüurunda yenidən canlanmasına deyilir. Bu yenidən canlanma insanın idrak prosesinin ilk pillələri olan duyğu və qavrayışlardan başlanır. Fəlsəfədə idrakın bu pilləsi «canlı seyretmə» adlanır. Lakin təsəvvür obyektiv aləmin əşya və hadisələri haqqında tam, hərtərəfli və düzgün anlayış yarada bilmir. Təfəkkür obyektiv aləmin əşya və hadisələrini düzgün və daha ətraflı əks etdirir. Təfəkkür obyektiv aləmin əşya və hadisələrinin özlərini, onların əlamət və keyfiyyətlərini ümumiləşdirilmiş və mücərrədləşdirilmiş formada sözlər vasitəsilə insan beynində, insan şüurunda inikas etdirir. Belə inikas, daha doğrusu obyektiv gerçəkliyin sözlə ifadəsi məfhum adlanır. Deməli, təfəkkür vahidi məfhum yalnız dil vahidi sözlər vasitəsilə təzahür edə bilər. «Nə qədər ki, bir şeyin inikasının dildə səs cildi yoxdur, onu məfhum hesab etmək olmaz. Belə ki, biz obyektiv aləmə nəzər salarkən orada olduqca müxtəlif şeylər görürük. Lakin. sözlə ifadəsini bildiyimiz şeylərin məfhumu olur. Əks təqdirdə, obyektiv aləmə aid bir cisim və ya hadisə təfəkkür vahidinə- yəni özünün anlayışlı ifadəsinə-malik ola bilməzdi. Burada bir cəhəti də qeyd etmək lazımdır.

Gerçəkliyə aid olan şeyi, olsun ki, biz duyğu üzvlərimiz vasitəsilə qavraya bilməyək, deməli, onun şüurumuzda müstəqil inikası olmasın. Məsələn, atom, elektron, neytron və s. Lakin sözlə ifadə olunmaları sayəsində bu obyektiv gerçəkliklərin təfəkkürdə öz məfhumlarına malik olmaları tamamilə mümkündür»24. L. V. Şerba sözlə obyektiv aləmin əşya və hadisələri, obyektiv gerçəklik arasındakı bu üzvü əlaqəni sezərək haqlı olaraq yazır ki, «ayrıça söz anlayışı, hər şeydən əvvəl, ayrıca predmet anlayışı ilə bağlıdır ki, həmin predmet də gerçəkliyin bizim ona olan fəal münasibətimizin təsirilə təhlil edilməsi nəticəsində yaranır»25.

Məfhumun obyektiv aləmin əşya və hadisələrinin insan şüurunda sözlə inikası heç də o demək deyildir ki, onlar eyiniyyət təşkil edir. Dilçilik ədəbiyyatının əksəriyyətində göstərilir ki, sözlə məfhum arasında üzvi əlaqə vardır, söz məfhumun səciyyəvi əlamətlərini özündə əks etdirir. Bu fikir qeyri-dəqiqdir, çünki ilkin sözlərin böyük əksəriyyəti təsadüfi yaranmışdır, ixtiyaridir, məfhum, sözün əsl mənasında, səciyyəvi əlamətləri özündə əks etdirmir. Kim iddia edə bilər ki, məsələn, *ağız, burun, bel, ayaq, çay, çəmən, çöl* və s. minlərlə söz ifadə etdikləri məfhumların, adlandırdıqları əşyaların səciyyəvi əlamətlərini özlərində əks etdirir. Türklərin ulu əcdadları Türk qəbilə dilini (dillərini) yaradarkən eyni müvəffəqiyyətlə bizim indi ağız adlandırdığımız bədən üzvünü, məsələn, burun da adlandıra bilərdilər və indi «xörəyi buruna yemək» ifadəsi heç kimə gülünc görünməzdi yaxud o vaxt burunu ağız adlandıra bilərdilər və indi bizə «ağızın ucundan uzağı görməmək» ifadəsi gülünc görünməzdi. Lakin sonralar dil inkişaf etdikdə əşya və hadisələrin adlandırılması, məfhumların sözlərlə ifadəsi təsadüfi, ixtiyari olmur, məqsədli olur, məfhumlar müəyyən başlıca əlamətlərinə görə əsaslandırılır, başqa sözlə desək, sözlər motivləşdirilmiş mənaya malik olur; məsələn, indi «mağaranın burnu» yaxud «gəminin ağzı» demək mümkün deyildir. Qeyd etmək lazımdır ki, məfhumların sözlərlə motivləşdirilmiş ifadəsi bütün dillərdə eyni xarakterdə olmur - hər dil məfhumun müəyyən əlamətlərini həmin məfhum üçün səciyyəvi hesab edib, məfhumu həmin əlamətə görə adlandırır və həmin əlamətə görə motivləşdirilmiş sözlə ifadə edir. Motivləşdirmə subyektiv (fərdi) yaxud ictimai (milli) səciyyəli ola bilər. Fərdi motivləşdirmə çox vaxt təsadüfi olur: müəyyən bir şəxs məfhumun (əşyanın) onun üçün daha əlamətdar, səciyyəvi görünən əlamətinə görə məfhumu ifadə edən sözü yaradar və bu söz sonralar hamı tərəfindən qəbul edilər. İctimai motivləşdirmə isə çox zaman xalqın dilinin milli ruhundan doğur.

Müasir dünya dillərində məfhumun motivləşdirilmiş yaxud motivləşdirilməmiş (ilkin) sözlə ifadə edilməsindən asılı olmayaraq sözlə məfhum arasında qırılmaz əlaqə mövcuddur. Artıq göstərildiyi kimi, məfhum gerçəkliyin insan beynində sözlərlə ifadəsi olsa da sözlə məfhum eynilik təşkil etmir və onların arasında bir sıra əsaslı fərqlər də vardır. Bu fərqlərdən ən mühümlərini göstərək:

1. Bütün məfhumlar sözlə ifadə edilir (vulqarcasına desək, bütün məfhumlar sözə bərabərdir), lakin bütün sözlər məfhum ifadə etmir, yəni dünyanın bütün dillərində elə sözlər vardır ki, bunlar məfhum ifadə etmir; hətta leksik-semantik mənası olan sözlərin bir qismi, məsələn, xüsusi isim, xüsusən şəxs adları, habelə şəxs əvəzlikləri heç bir məfhum bildirmir.

**Mən** yalnız mənim özüm üçün **mənəm**, başqası üçün **sən**, hətta **o** da ola bilərəm. Məlum olduğu kimi, məfhum dəyişmir, **ağac** hər yerdə **ağacdır**, o burada **ağac**, başqa yerdə **çiçək** ola bilməz. Bir şəxsin adı Alimdirsə, o alim olmaya da bilər, hətta kütbeyin də ola bilər. Məlum olduğu kimi, məfhum əşyanın mühüm, səciyyəvi əlamətlərinin sözlərlə ifadəsidir. Şəxs adı məfhum olsa idi, onda adı Alim olan şəxs həqiqətən də elm dəryası olmalı idi. Bu qrup sözlərdən başqa bütün köməkçi nitq hissələrinə daxil olan sözlər də məfhum ifadə etmir.

2. Bir neçə söz bir məfhumu ifadə edir, dilin semantik sistemində sinonimlik yaranır; məsələn, **ürək, könül, qəlb** sözləri bir məfhumu bildirir. Düzdür, sinonim sözlər eyni məfhumu ifadə etsə də semantik mənaca eyni olmur. **Ürəkdən sevmək, qəlbdən sevmək** demək olur, **lakin ürək üzərində cərrahiyyə əməliyyatı aparmaq** demək mümkün olduğu halda, **könül (qəlb) üzərində cərrahiyyə əməliyyatı aparmaq** demək mümkün deyildir. Lakin bəzi hallarda sinonimlərin dubletlər adlanan növü bütün üslubi məqamlarda bir-birini əvəz edir; məsələn, **dilçilik, linqvistika**;

3. Bir söz bir neçə məfhumu bildirir, yəni söz fonetik tərkibcə eyni olur, ancaq onun ifadə etdiyi məfhumlar müxtəlif olur; beləliklə, dilin semantik sistemində omonimlik yaranır. Məsələi, Azərbaycan dilində kök sözü bitkinin kökü, kök adam, sözün kökü, köküyeməli bitkinin adı məfhumlarını ifadə edir. Ontonim sözlər eyni mənşəli (məsələn: **ay** - yerin təbii peyki, **ay** - ilin on ikidə bir hissəsi) və müxtəlif mənşəli (məsələn: **yay**-fəsil, **yay** - texnikada hissə, **yay**-ox atmaq üçün alət, **yay**-yaymaq felinin kökü) ola bilər.

4. Obyektiv gerçəklikdə əşya və onun inikası olan məfhum sabit qaldığı halda onu ifadə edən söz köhnəlib dildən çıxa (arxaik fonda keçə) bilər, əvəzində həmin məfhumu ifadə edən yeni söz yarana bilər; məsələn, Azərbaycan dilində vaxtilə **yağı** adlanan məfhum indi **düşmən** sözu ilə ifadə edilir. Eyni sözləri, **yanşaq-ozan-aşıq** sözləri barədə, yəni onların müxtəlif zamanlarda ifadə edildiyi yeganə məfhum halında da demək olar.

5. Söz fonetik tərkibcə eyni qala bilər, lakin onun ifadə etdiyi məfhum dəyişə bilər; məsələn, rus dilində **pozor** sözü vaxtilə seyretmə məfhumu ifadə etdiyi halda, indi rüsvayçılıq məfhumunu ifadə edir.

6. Məfhum təkcə həqiqi mənada işlənə bildiyi halda söz məcazi mənada da işlənib dilin semantik sistemində çoxmənalılıq (polisemiya) əmələ gətirir.

7. «Sözlər məfhum bildirməkdən başqa, müəyyən konkret hallarda hökm də bildirməyə qadirdir; məsələn, rus dilindəki *proşu, ladno* sözlərində olduğu kimi»26.

8. Məfhum ümumbəşəri səciyyə daşıyır, söz isə milli olur, yəni məfhum bütün xalqlarda eyni çür qavranılır, lakin ayrı-ayrı dillərdə eyni bir məfhum müxtəlif sözlərlə ifadə edilir; məsələn, **ev** məfhumu bütün xalqlarda müəyyən bir tikili kimi qavranılır və eyni bir assosiasiyanı verir, lakin müxtəlif dillərdə müxtəlif sözlərlə

(Azərbaycan dilində **ev**, fars dilində **xane**, rus dilində **dom**, qırğız dilində **üy**, ingilis dilində **home**, alman dilində **Das Haus**, talış dilində **kə**, ərəb dilində-**beytun** və s.) ifadə edilir.

**Cümlə və hökm.** Dil və məntiqi təfəkkür probleminin ən mübahisəli məsələlərindən biri də hökm və cümlə, məntiqi və qrammatik subyekt və predikat arasındakı qarşılıqlı münasibətdir. Məsələni mürəkkəbləşdirən bir də odur ki, hökm və onun üzvlərinin müəyyənləşdirilməsi, onlara tərif verilməsi sahəsində mutəxəssislər arasında indiyədək vahid rəy yoxdur. Belə olduqda bu təfəkkür kateqoriyaları ilə uyğun dil kateqoriyalarının - cümlə və cümlə üzvlərinin qarşılıqlı münasibəti məsələsinin həllindən danışmaq belə olmaz.

Məntiqi hökmün müəyyənləşdirilməsində iki əsas-fikir vardır: 1. hökm qavrama aktı kimi qəbul edilir, əşya müəyyən ümumi əlamətə malik olur. Əşya məntiqi subyekt məzmunu, əlamət məntiqi predikat məzmunu daşıyır. Subyektlə predikat arasındakı münasibət ya həqiqi, ya da yalançı ola bilər. Hökm əşya və ya hadisədə müəyyən əlamət, keyfiyyət, xususiyyət və s. olub-olmadığını bildirir. Hökm ya təsdiq, ya da inkar olur. Açıq yaxud üstüörtülü şəkildə, belə hesab edilir ki, subyekt və predikat qrammatik mübtəda və xəbərdə ifadə edilir. 2. hökmə kimin, nə haqda isə fikir söyləməsi kimi baxırlar. Bu konsepsiyada subyekt və predikat «sürüşkən» kateqoriya hesab edilir, başqa sözlə desək, ikinci fikrə görə məntiqi subyekt və predikat hər hansı bir cumlə üzvü ilə ifadə edilə bilər. Bu fikrin tərəfdarları məntiqi hökmü keçən əsrin sonlarından başlayaraq (muasir xarici dilçilikdə indi də) psikoloji hökm kimi izah edilən kateqoriya ilə eyniləşdirirlər. Məntiqi və psikoloji hökmlər arasındakı fərq ya aradan qaldırılır, ya da bu iki hökm tamamilə eyniləşdirilir. Hökmlə cümlənin münasibəti məsələsində də iki baxIş mövcuddur. Tədqiqatçıların bir qismi belə hesab edir ki, hər bir cümlədə hökm ifadə edilir, hökm yalnız cumlə vasitəsilə ifadə edilə bilər. Həmin tədqiqatçıların başqa bir hissəsi bu fikri qəbul edir, lakin dildə sual və nida, habelə təktərkibli cumlələrin mövcudluğu ilə əlaqədar olaraq «hər bir cumlə hökm ifadəedir hökm yalnız cümlə vasitəsilə ifadə edilə bilər» fikrindən doğan şübhəni müəyyən yollarla aradan qaldırmağa çalışır. İkinci qisim tədqiqatçılar belə hesab edirlər ki, hər hansı bir cümlədə hökmün olması zəruri deyil: onlar çümlələri hökm ifadə edənlər və hökm ifadə etməyənlər deyə iki qrupa bölürlər.

Hazırda hər iki baxış sürətlə inkişaf edən dilçilik və məntiqin tələbatını ödəmir. Tədqiqatçılar dil və məntiqin kategoriyalar, o cümlədən cümlə və hökm arasındakı münasibətləri aydınlaşdırmaq üçün üsullar arayırlar. Bu sahədəki təşəbbüslərin əksəriyyəti hökm və cümlə arasında düzxətli münasibət olduğunu iddia edən ənənəni aradan qaldırmağa yönəldilmişdir.

Dildə sual, nida, habelə təktərkibli cümlələrin mövcudluğu təfəkkürdə də uyğun formalar axtarmağa təhrik edir. Məsələn, V. P. Çesnokov hökmlə sual və nida cümlələrini birləşdirən yeni məntiqi vahid - məntiqi fraza (loqem) göstərir; V. V. Babaytseva hökmün komponentlərindən biri verballaşmış (sözlə ifadə edilmiş) məntiqi-psikoloji hökmdən bəhs edir. Mürəkkəb dil vahidlərinin mövcudluğundan çıxış edərək Q. Y.

Solqanik məntiqi stroflar - özündə bir neçə hökmü birləşdirən təsdiqedici təfəkkür forması haqqında fikir yürüdür. Cümlənin aktual (məna) üzvlənməsini V. Z. Panfilov dilin məntiqi-qrammatik səviyyələri kimi izah edir.

Dilin məntiqi-qrammatik təhlili priyomlarının təkmilləşdirilməsi yeni konstruktiv modelləşdirməni geniş və hərtərəfli tətbiq etməyi tələb edir; sintaktik formulların (düsturların) sıfır komponentlərindən və transformasiya metodikasından istifadə edilməsi dildəki dərin məntiqi formaları açmağa kömək edir. Məsələn, D. Uors və R. Rujiçka belə hesab edirlər ki, təktərkibli feli cümlələr öz məntiqi təbiəti etibarilə cüttərkibli cümlələrlə eynilik təşkil edir, çünki təktərkibli cümlələr cüttərkibli cümlələrin sintaktik və morfoloji transformalarıdır. Ə. Z. Abdullayev də bu deyilənlərə uyğun fikir söyləyir.

Hökmlə cümlə arasindakı əlaqə haqqında konkret nə demək olar? Dilçilik və məntiq elmlərinin müasir inkişafı səviyyəsində hökmlə cümlə arasında olan münasibətlər haqqında konkret və qəti fikir söyləmək çətindir. Məntiq elmi mütəxəssisləri problemin hələ də həll edilməsində dilçiləri təqsirləndirib deyirlər ki, «fikir forması kimi hökmün qrammatik forma kimi cümləyə münasibəti məsələsi istər məntiqçilərin, istərsə də dilçilərin diqqətini çoxdan cəlb etmişdir. Bu məsələnin məntiq elmi tərəfindən düzgun həlli onunla çətinləşdirilmişdir ki, dilçilər cümlə, onun növləri təlimi məsələsinin bir sıra suallarına indiyədək cavab verməmişlər. Hətta cümlənin öz anlayışının müəyyənləşdirilməsi üzrə də dilçilər arasında fikir birliyi yoxdur»27.

Bütün hökmlər cümlələr vasitəsilə ifadə olunur, cümlədən kənarda hökm yoxdur. Bu da təfəkkür kateqoriyası olan hökmlə, dil kateqoriyası olan cümlə arasında müəyyən yaxın əlaqələrin olduğunu göstərir. Lakin, artıq göstərildiyi kimi, hökmlə cümlə eyniyyət təşkil etmir, onların arasında bir sıra əhəmiyyətli fərqlər də vardır:

1. Cümlədən kənarda, cümlə halında formalaşmayan heç bir hökm ola bilməz, halbuki bütün cümlələrin hökm ifadə etməsi məcburi deyildir; elə cümlələr vardır ki, heç bir hökm ifadə etmir. Məsələn, sual və nida cümlələri. Deməli, cümlənin hüdudu hökmün hüdudundan genişdir.

2. Bütün təfəkkür kateqoriyaları kimi, hökm də ümum-bəşəri xarakter daşıyır, halbuki onun cümlədə ifadəsi milli olur, yəni cümlə milli xarakterli olur; eyni bir hökmü hər xalq öz milli dilində ifadə edir. Məsələn, azərbaycanca: *Mətin yaxşı oğlandır*; rusca: Mətin xaroşi malçik; ingiliscə: Mətin is a good boy cümlələri bir hökmü - Mətin adlı oğlanın yaxşı olması hökmünü ifadə edir.

3. Müəyyən bir hökm, hətta ayrıca götürülmüş müəyyən bir dildə muxtəlif cümlələrlə ifadə edilə bilər; bütün dillərin sintaktik quruluşda cümlə sinonimliyi-sintaktik sinonimlik mövcuddur. Məsələn, *Bu, xoş*

*xasiyyətli qızdır* hökmünü - *Bu, xoş xasiyyətli qızdır*., *Bu qızın xasiyyəti xoşdur*., *Bu qız xoş xasiyyətlidir* və s. cumlələrlə ifadə etmək olar.

4. Hökmlə cümlənin quruluşunda, hökm üzvləri ilə cümlə üzvlərinin sayında da ciddi fərqlər vardır-hökmun üç ünsürü vardır; subyekt, predikat, bağlama. «Subyekt hökmün predmeti, predikat isə predmet haqqında nəyin təsdiq, nəyin inkar edilməsini bildirən bilikdir; bağlama predikatda düşünülənin hökmün predmetinə məxsus olmasını yaxud məxsus olmamasını təyin edir»28. Cümlənin beş üzvü olur: mübtəda, xəbər (bunlar cümlənin baş üzvləridir), təyin, tamamlıq və zərflik (bunlar cümlənin ikinci dərəcəli üzvləridir). hökmdə təyin, tamamlıq və zərfliyə uyğun gələn üzvlər yoxdur. Hökmün subyekt və predikat ünsürləri müvafiq surətdə cümlənin mübtəda və xəbər üzvlərinə uyğun gəlsə də bunların arasında əhəmiyyətli fərqlər vardır.

5. Hökmlə cümlə formaca hətta uyğun gəlsə də komponentlərinə görə fərqlənə bilər. Məsələn, **Qapı açıldı** cümləsində **qapı** sözü mübtədadır, halbuki bu hökmdə **qapı** sözü subyekt ola bilmir, çünki qapı iş görən deyil uzərində iş görüləndir.

6. Hökm mütləq cüttərkibli olmalıdır, cümlə isə tək tərkibli də ola bilər; məsələn, *Onun məsələsinə iclasda baxıldı.*

7. Hətta sadə cümlədə bir neçə hökm ola bilər (mürəkkəb cümlədə bir neçə hökmün olması mübahisəsizdir). Məsələn, *İclasda Mədinədən başqa hamı danışdı* cümləsində iki hökm vardır: 1) İclasda hamı danışdı) 2) İclasda Mədinə danışmadı.

A. Axundov haqlı olaraq yazır ki, «bu fərqlər fikir forması olan hökmlə dilin forması olan cümlə arasındakı qarşılıqlı əlaqəni heç də inkar etmir. Bu əlaqə dillə təfəkkürün qırılmaz vəhdətinə əsaslanır»29.

**Qrammatik və məntiqi kateqoriyalar.** Dil və məntiq təfəkkür probleminin maraqlı məsələlərindən biri də məntiqi və qrammatik kateqoriyaların qarşılıqlı münasibəti, əlaqəsi məsələsidir.

Kategoriyalar gerçəkliyin və idrak proseslərini mühüm, ümumi xüsusiyyət və əlaqələrini əks etdirən tarixi-ictimai anlayışlardır. Kategoriyalar idrak prosesinin məhsulu olduğu üçün qrammatik və məntiqi kateqoriyalar arasında sıx əlaqə vardır. Bu əlaqə dil və təfəkkürün vəhdətində təzahür edir.

Əvvəlcə, qrammatik kateqoriyaların mahiyyətini nəzərdən keçirək. Dildə geniş işlədilən digər anlayışlar kimi, qrammatik kategoriyalar anlayışının da hamı tərəfindən qəbul edilmiş tərifi yoxdur. Geniş mənada, bu termin təsnifləmənin növlərini göstərmək üçün işlədilir. Bu mənada müxtəlif qrammatik hadisələr məsələn, nitq hissələrini, onların daxilində müxtəlif struktur-semantik sinifləri və s. qrammatik kateqoriya hesab etmək olar. Dar mənada qrammatik kategoriyalar xüsusi qrammatik vasitələrlə ifadə edilən müəyyən qramatik mənaların məcmusudur. Bu aspektdə hal, kəmiyyət, mənsubiyyət, zaman, felin şəkilləri və s.

qrammatik kateqoriyalara aid edilir. Qrammatik kateqoriyanın əmələ gəlməsi üçün iki əlamətin mövcudluğu zəruridir: 1) qrammatik oppozisiya (ən azı iki eyni cinsli qarşılaşdırılan münasibəti bildirən məna) və 2) bu mənaların mütləq qrammatik vasitələrlə- şəkilçilərlə, fonem dəyişməsi ilə, köməkçi sözlərlə, söz sırası ilə və s. - ifadə edilməsi. Belə formal qrammatik vasitələrə həm morfoloji, həm də sintaktik kateqoriyalarda rast gəlmək olar. Tədqiqatçılar inikas edən obyektin səciyyəvi ifadə vasitələrinə görə qrammatik mənaların növlərini qeyd edirlər. Real münasibətlərin dildə inikası tipindən asılı olaraq qrammatik mənaların üç tipini göstərmək olar:

1. Əşya və hadisələr arasındakı obyektiv münasibətləri ifadə edən tip. Buraya əşya və əlamət, subyekt-obyekt, məkan, kəmiyyət, səbəb-nəticə və s. münasibətlər daxildir. Bu tip qrammatik məna hələ söz səviyyəsində özünü göstərir və dilin quruluşundan asılı olaraq bu mənanın ifadə vasitələri müxtəlif olur. Belə qrammatik mənalar, bir qayda olaraq, morfoloji (sintetik və analitik) vasitələrlə ifadə edilir. Bu mənalar nitq hissələri və onların daxilində ayrı-ayrı söz qrupları ilə məhdudlaşır.

2. İkinci tipə o mənalar daxildir ki, onların əsasında söyləmin obyektiv məzmununun gerçəkliyə münasibəti dursun; buraya şəxs, felin zaman və şəkil kateqoriyaları daxildir. İkinci tip qrammatik mənalar da morfoloji vasitələrlə ifadə edilir.

3. Üçüncü tip mənaların əsasını danışanın söyləmə münasibəti təşkil edir. Bu mənalar bilavasitə kommunikativ xarakter daşıyır. Onlar danışanın malik olduğu biliyin dinləyən üçün informasiyaya çevrilməsilə bağlı zəruri komponentdir. Üçüncü tip qrammatik mənalar sintaktik vasitələrlə ifadə edilir. Buraya söz sırası, xüsusi sintaktik konstruksiyalar, modal sözlər və ədatlar daxildir. Amma bu qrammatik vasitələr arasında intonasiya xüsusi əhəmiyyətə malikdir. İntonasiya strukturları (intonemlər) cümlə quruluşu üçün məcburidir.

Qeyd etmək lazımdır ki, hər üç tip qramatik məna yalnız cümlə daxilində özünü göstərir, qrammatika ilə leksikanın sintezindən əmələ gəlir.

Məntiqi kategoriyalar dedikdə biz real obyektləri inikas edən təfəkkür kateqoriyalarını anlayırıq. Məntiqi kateqoriyaları belə anlama O. Yespersenin, habelə-İ. İ. Meşşanninovun irəli sürdükləri təfəkkür kateqoriyaları haqqında nəzəriyyəyə əsaslanır. O. Yespersen yazır: «Beləliklə, təsdiq etmək lazım gəlir ki, hər bir dilin quruluşundan mövcud olduğu şəkildə asılı olan sintatik kateqoriyalarla yanaşı yaxud onlardan əlavə və ya bu kateqoriyaların arxasında mövcud dillərin çox ya az dərəcədə təsadüfi olan faktlarından asılı olmayan dilxarici kategoriyalar da vardır. Bu kateqoriyaların həmin dillərdə nadir hallarda aydın və qəti şəkildə ifadə edilməsinə baxmayaraq onlar bütün dillərə tətbiq edilə bildikləri üçün universaldır. Onlardan bəziləri ətraf aləmin cins kimi faktlarına, digərləri zehni fəaliyyət, yaxud məntiqə aid olur. Münasib termin olmadığı üçün mən bu kateqoriyaları anlayışlı kategoriyalar adlandıracağam. Qrammatiklərin vəzifəsi ondan

ibarət olmalıdır ki, hər bir konkret halda anlayışlı və sintaktik kategoriyalar arasında mövcud olan qarşılıqlı münasibətləri tədqiq etsinlər»30.

M. Dokulil sintaktik və qnoseoloji-məntiqi kateqoriyaları fərqləndirir və qeyd edir ki, qnoseoloji-məntiqi kategoriyalar sintaktik kateqoriyalarda vasitəli və mürəkkəb şəkildə özünü göstərir. V. Z. Panfilov «məntiqi-qrammatik səviyyə» kateqoriyalarını məntiqi kateqoriyalara aid edir. «məntiqi-qrammatik səviyyə» kateqoriyalarını qrammatik kateqoriyalarla qarşılaşdırır və belə hesab edir ki, qrammatik kategoriyalar müəyyən mənaya malik olsa da, təfəkkürlə bilavasitə bağlı deyildir.

Formal məntiqin (Aristotel məntiqinin; dialektik, yaradıcı məntiq də mövcuddur) kateqoriyaları hələ antik filosoflara məlum idi, Aristotel «Kateqoriyalar» adlı əsərində on kateqoriya göstərirdi: mahiyyət (substansiya), kəmiyyət, keyfiyyət, münasibət, məkan, zaman, vəziyyət, hal, hərəkət və iztirab. Məntiqi və qrammatik əlaqələrdən danışarkən formal məntiqin kateqoriyaları, təfəkkür formaları ilə qrammatik kategoriyalar arasındakı qarşılıqlı münasibətləri araşdırmaq lazımdır.

Məntiqi kategoriyalar təfəkkür vahidləri olduğu üçün dil vahidləri ilə ifadə edilməlidir. Məfhum söz, hökm cümlə vasitəsilə ifadə edilir. «Məntiqi kateqoriyaların bəziləri, məsələn, substansiya, keyfiyyət, məkan, hal, hərəkət və s. Dildə ümumi qrammatik kategoriyalar, konkret olaraq nitq hissələri (isim, sifət, fel, zərf); bəziləri isə məsələn,. kəmiyyət, zaman kateqoriyaları həm ümumi qrammatik (müvafiq olaraq, say, zərf), həm də xüsusi qrammatik kategoriyalar (kəmiyyət, zaman) kimi çıxış edir. Bəzi məntiqi kateqoriyalar isə məsələn, münasibət, yalnız xüsusi qrammatik kategoriyalar (hal, mənsubiyyət, növ və s.) kimi çıxış edir»31.

Məntiqi kateqoriyalarla qrammatik kategoriyalar arasında sıx əlaqə vardır, lakin bu onların eyniyyət təşkil etməsi demək deyildir; onların arasında bir sıra mühüm fərqlər də mövcuddur:

1. Məntiqi kategoriyalar ümumbəşəri xarakterdədir, yəni bu kategoriyalar, maddi mənsubiyyətindən asılı olmayaraq, hamının təfəkküründə eyn şəkildə inikas edir. Qrammatik kategoriyalar həmişə milli səciyyə daşıyır, yəni bir kateqoriyanı azərbaycanlı, rus, ingilis, fars, hindli və i. a. eyni cür qavradığı halda hər kəs onu öz milli dilində, milli dilinin qrammatik vasitələrilə ifadə edir. Əyani olsun deyə qeyd edək ki, məsələn, məntiqi zaman kateqoriyasının üç forması olduğu halda qrammatik zaman kateqoriyasının Azərbaycan dilində beş, rus dilində üç, ingilis dilində 15 forması vardır.

2. «Bir çox hallarda konkret dillərdə məntiqi kateqoriyalara nisbətən qrammatik kateqoriyaların məna həcmi daha geniş olur»32. Məsələn, məntiqi zaman kateqoriyasının üç forması mövcud olduğu halda, qrammatik zaman kateqoriyasının ingilis dilində on beş məna forması vardır.

3. «Məntiqi kategoriyalar bəzən qrammatik kateqoriyalarla ifadə olunmaya da bilər. Bu mənada, məntiqi kateqoriyaların əhatə dairəsi qrammatik kateqoriyalara nisbətən geniş olur. Məsələn, məntiqi cins

kateqoriyası bəzi dillərdə, o cümlədən Azərbaycan və ingilis dillərində qrammatik kateqoriya kimi mövcud deyildir. Həmin dillərdə göstərilən məntiqi kateqoriya başqa yollarla, deyək ki, leksik və semantik yollarla ifadə olunur»33. V. A. Zveginsev yazır: «Əgər cins kateqoriyasına müraciət etsək, bu halda da müstəqim uyğunsuzluqlar nəzərə çarpır ki, onları rus, alman və fransız dillərindən götürülmüş misalların aşağıdakı tutuşdurmaları ilə nümayiş etdirmək olar: soldat – der Soldat!- le soldat (təbii cinsi -kişi, qrammatik çinsi - kişi); doç – die Dochter - la fille (təbii cinsi - qadın, qrammatik cinsi - qadın); vorobey – der Sperling - le cheve (təbii cinsi kişi və qadın, qrammatik cinsi - kişi); mış-– die Maus - le Souris (təbii cinsi - qadın və kişi, qrammatik cinsi-qadın); das Pferd (təbii cinsi- kişi və qadın, qram. cinsi - orta); das Wiceb (təbii cinsi - qadın, qrammatik cinsi - orta); komnata - die Fruit - la tabe (təbii cinsi yoxdur, qrammatik cinsi - qadın)»34.

4. «Bəzi hallarda məntiqi və qrammatik kateqoriyaların ünsürləri bir-birinə uyğun gəlmir. Məsələn, Sabah mən Moskvaya gedirəm cümləsində hərəkətin icrası məntiqi cəhətdən gələcəyə aid olduğu halda, qrammatik cəhətdən indiki zamanı bildirir. Ümumiyyətlə, bütün qrammatik zaman formalarında belə məntiqi sərbəstlik müşahidə olunur»35.

Bütün bunları nəzərə alaraq, V. İ. Koduxov yazır: «... məntiqi və qrammatik kategoriyalar, substansiya (predmet), keyfiyyət, hərəkət və s. kategoriyalar və nitq hissələrinin ümumi semantikası ilə məntiqi və qrammatik modallıq (felin şəkilləri) uyğun gəlmir»36.

Dilin məntiqi təfəkkürlə əlaqəsi, sözlə məfhumun, cümlə ilə hökmün, məntiqi kateqoriyalarla qrammatik kateqoriyaların uyğun gələn cəhətlərini mentalinqvistikanın məntiqi mentalinqvistika deyilən cərəyanı dilin uyğun kateqoriyaları ilə (söz, cümlə və qrammatik kategoriyalar) arasında olan fərqi mentalinqvistikanın psikoloji mentalinqvistika adlanan cərəyanı öyrənir.

Hazırda dilin semantikasında fikrin məntiqi anlayışlı formasından fərqlənən xüsusiyyətlər psikoloji mentalinqvistika tərəfindən ciddi öyrənilir. Şüur və təfəkkür anlayışının özü genişləndirilir və dərinləşdirilir: Obrazlı (bədii) və adi, gündəlik təfəkkür məntiqi təfəkkürə qarşı qoyulur; xüsusi təfəkkür formalarının - texniki, emosional və fərdi, habelə, obrazlı və gündəlik təfəkkür məsələsi qaldırılır; psixoloji hökm, məntiqi hökmə qarşı qoyulur; nitq fəaliyyəti, kontekst və nitq situasiyası tədqiq edilir və s.

# İkinci fəsilin notları

1 Obşee Yazıkoznanie. Formı suşsetvovanii, funktsi, isteriya Yazıka 1970.

2 N. Məmmədov, A. Axundov. Dilçiliyə giriş. Bakı, 1966.

3 K- Marks i F. Enqels. Soçinenia

4 K. Marks, F. Enqels. Seçilmiş əsərləri 1953

5 M. Məhərrəmov. Psikologiya. Bakı, 1968.

6 F. Enqels. Anti-Düring. Bakı, 1953

7 Obşee yazıkoznanie. Formı suşestvovania, funktsii, istoria yazıka 1970,

8 V. Z. Panfilov. K voprosu o sootnoşenii yazıka i mışlenia «Mışlenne i Yazık».1957,

9 M. Məhərrəmov. Psixologiya

10 B F. Porşnev. O naçale çiloveçeskoi istorii,

11 İ V. Kopnş. Formı mışlenia i ix rol v poznanii, dokt. diss. avtoreferatı 1955.

12 İ M. Seçenov. İzbraniye filosofskie i psixoloqiçeskie proizvedenia 1947.

13 L. S. Vıqotskii. Mışlenie i reçh. 1934.

14 Obşee yazıkoznanie. Formı suşestvovania, funktsii, istoria yazıka, 1970

15 V A. Zveqintsev, Oçerki po obşemu yazıkoznanyo. 1962.

16 Ağa.Musa Axundov. Ümumi dilçilik Bakı, 1979

1 7 . F Porşnev. O naçale çeloveçeskoi istorii.

18 *Heterogen* - çoxsistemlik, çoxlu homogen sistemə malik.

19 *Homogen*- eynicinsli ünsürlərdən ibarət sistem.

20 Məşhur riyaziyyatçı və filosof Dekartin adındandır

21 Bax: F. M. Berzein, B. N. Qolovin. Obşe yazıkoznanie. M., 1979, s89.

22 Mışlenie i yazik. M, 1957, s. 215.

23 E. M. Qalkina Fedoruk. Slovo i ponyatnie. M., 1956, s. 37.

24 Ağamusa Axundov. Ümumi dilçilik, s. 77-78,

25 Akad. L. V. Şerba. Prepodvanie inostrannıx yazıkov v sredney şkole. M, 147, s. 76.

26 Mışlenie i yazuk, s. 274. 92

27 Mışlenie i yazik, s. 722.

28 Loqiea. M., 1956, s. 71.

29 Aqamusa Axundov. Ümumi dilçilik, s. 81

30 O. Espersen. Filosofiya qrammatiki. M,, 1958, s. 57-58: 98

31 Ağamusa Axundov. Ümumi dilçilik, s. 82.

32 Yenə orada.

33 Yenə orada. s. 82-83.

34 V. A. Zveqiniev. Oçerki po obşemu yazikoznaniyu, s. 362-363.

35 Ağamusa Axundov. Ümumi dilçilik, s. 83.

36 V. İ. Koduxov. Obşee yazıkoznaniye. M., 197-3, s. 154: